# ضوابط
# تكفير المعين

قرأها وقدم لها

فضيلة الشيخ
عبدالله بن عبدالرحمن الجبرين

و

فضيلة الشيخ
عبدالعزيز بن عبدالله الراجحي

وقرئت على فضيلة الشيخ
عبدالرحمن بن ناصر البراك


تأليف
أ.د/ عبدالله بن عبدالعزيز الجبرين
الأستاذ بكلية المعلمين بالرياض

Kitabın adı

# Müəyyən bir şəxsin Təkfir edilməsi üçün düzgün qaydalar.

Oxudu və təqdim etdi

Fəzilətli Şeyx: Abdullah ibn Əbdürrəhman əl-Cibrin
Fəzilətli Şeyx: Əbdüləziz ibn Abdullah ər-Racihi

Oxundu

Fəzilətli Şeyx: Əbdürrəhman ibn Nasir əl-Barraka

Müəllif

Riyad şəhəri Müəllimlər fakultəsinin müəllimi
(Ustad. Doktor)\  Abdullah ibn Əbdüləziz  əl-Cibrin

Tərcümə etdi
Səid İsrafilov

Rəhimli və mərhəmətli Allahın adı ilə

Üçüncü nəşrin müqəddiməsi

Həmd yalnız Allaha məxsusudur. Özündən sonra Peyğəmbər olmayana ﷺ Allahın salamı və salavatı olsun!
Və sonra:
Allaha həmd olsun ki, qısa bir müddət ərzində "Müəyyən bir şəxsin Təkfir edilməsi üçün düzgün qaydalar" risaləsinin birinci nəşri bitdi. əl-Mucmaə məntəqəsində olan İslam məlumatlandırma mərkəzinə təşəkkürlər olsun bu dörd əlavəni etdiyim kitabın ikinci dəfə nəşrini həyata keçirdi[1]:

1- "Allahın hökmündən başqası ilə hökm vermək" Müəllif: "Fəzilətli Şeyx Saleh ibn əl-Üseymin ﷺ".
2- "Kafirlərə müsəlmanlara qarşı kömək etmək" Müəllif: "Fəzilətli Şeyx Doktor [2] Saleh ibn Fövzan əl-Fövzan (Allah onu müvəffəq etsin).
3- "Təshil əl-Əqidə əl-İsləmiyyə" adlı risaləmin bir hissəsi olan "Müsəlmanlara qarşı kafirləri dost tutmaq".
4- "Xəvariclərə oxşamaqdan çəkinmək".

Sonra bu risaləni bu dörd əlavə ilə birgə üçüncü dəfə nəşr etmək qərarına gəldim. Allahdan bu işi xalis onun üçün və Peğəmbərin ﷺ sünnətinə müvafiq etməsini diləyirəm. Həmçinin bu kitab ilə yazarına və bütün müsəlmanlara fayda verməsini diləyirəm. Allahın salamı və salavatı Peğəmbərimiz Muhəmmədin ﷺ, ailəsinin və səhabələrinin ﷺ üzərinə olsun!

Riyad şəhəri Müəllimlər fakultəsinin müəllimi
Abdullah ibn Əbdüləziz əl-Cibrin
ər-Rabi əs-Səni ayı hicri 1425- ci il.

[1] Bizim tərcümə bu əlavələri əhatə etmir sadəcə kitabın əslinə aiddir.
[2] Elmi dərəcə.

## Birinci nəşrin müqəddiməsi

Həmd yalnız Allaha məxsusudur. Özündən sonra Peyğəmbər olmayana ﷺ Allahın salamı və salavatı olsun!
Və sonra:

Bu mövzunun çox əhəmiyyətli olduğunu nəzərə alaraq...
Çünki müəyyən bir müsəlmana küfr hökmü vermək onu İslam dairəsindən çıxarmaqdır. Bu o deməkdir ki, onun qanı və malı halaldır. Onunla müsəlman zövcəsi arasında olan nikahın ləğv edilməsidir. Öldüyündə isə yuyulmaması, kəfənlənməməsi, cənazə namazı qılınmaması və müsəlmanların qəbirstanlığında basdırılmaması deməkdir. Həmçinin bu halda ölərsə əbədi cəhənnəm odunda olmasıdır.

Həmçinin Allahın və Elçisinin ﷺ Təkfir etmədiyi müsəlman bir insanı Təkfir etməyin təhlükəsini və Peyğəmbərin ﷺ bu sözünü: "Bir insan kimisə fasiqlik və küfürdə ittiham edərsə, həmin şəxs dediyi kimi deyilsə, onun iddiası özünə qayıdar."[1] nəzərə alaraq...
Əksər müsəlmanların müəyyən bir şəxsin Təkfir edilməsi üçün düzgün qaydaları bilmədiklərini və bir şeyə mütləq küfr hökmü vermək ilə Təkfir olunacaq bir şeyə düşmüş müəyyən bir şəxsə veriləcək hökmü ayıra bilmədiyini nəzərə alaraq...

Bu məsəldə ifrata varan və səhlənkarlıq edənlərin, mütləq şəkildə Təkfiri qadağan edənlərin və müəyyən bir şəxsi bütün şərtlər yerinə yetmədən və ya Təkfirə mane olan bir və ya daha artıq maneələrin olduğnu gözləmədən Təkfirdə ifrata (həddi aşan) varan kəslərin mövcud olmasını nəzərə alraq...

Bütün bunları nəzərə alaraq bu mövzuda bu müxtəsər risaləni yazdım. Bu mövzunun əhəmmiyətli və təhlükəli olmasını nəzərə alaraq bu risaləni kamil şəkildə şeyxim fəzilətli Şeyx Əbdürrəhman ibn Nasir əl-Barraka - Allah onu müvəffəq etsin - oxudum. Bu risaləni ona oxuduğum əsnada mənə bildirdiyi hər bir göstərişinə əməl etdim.
Eləcədə şeyxim fəzilətli Şeyx Abdullah ibn Əbdürrəhman ibn Cibrin ﵀ bu risaləni oxuyub ona təqdim etməklə şərəf verdi.
Həmçinin şeyxim fəzilətli Şeyx Əbdüləziz ibn Abdullah ər-Racihi (Allah onu müvəffəq etsin) bu risaləni oxuyub ona təqdim etməklə şərəf verdi.

---

[1] Buxari ﵀ və Müslim ﵀ rəvayət etmişlər.

Bu müxtəsər risaləmdə müsəlmanın düşdüyü və onu İslam dairəsindən çıxaran amillər haqda söhbət uzanacaq deyə geniş danışmadım. Sadəcə bu barədə bəzi misallar qeyd etməklə kifayətəndim. Təkfir ediləcək məsələlər və onlara misallar haqda geniş "Təshil əl-Əqidə əl-İsləmiyyə" adlı risaləmdə danışmışam.
Allahdan kitabı yazarı və bütün müsəlmanlar üçün faydalı etməsini, bizi ona qarşı ixlas, Peyğəmbəri Muhəmmədin ﷺ yolunu getmək ilə ruziləndirməsini, bizi müsəlman olaraq öldürməsini, saleh insanlarla birgə (həşr) etməsini diləyrəm. Allahın salamı və salavatı Peğəmbərimiz Muhəmədin ﷺ, ailəsinin və səhabələrinin ﷺ üzərinə olsun!

Riyad şəhəri Müəllimlər fakultəsinin müəllimi
Abdullah ibn Əbdüləziz əl-Cibrin

# تقديم فضيلة الشيخ الدكتور
# عبدالله بن عبدالرحمن الجبرين

بسم الله الرحمن الرحيم

الحمد لله رب العالمين والعاقبة للمتقين ولا عدوان إلا على الظالمين وأشهد أن لا إله إلا الله وحده لا شريك له إله الأولين والآخرين وأشهد أن محمداً عبده ورسوله الصادق الأمين صلى الله عليه وسلم وعلى آله وصحبه ومن تبعهم بإحسان إلى يوم الدين.

أما بعد فقد قرأت هذه الرسالة التي كتبها الأستاذ الدكتور عبد الله بن عبد العزيز الجبرين في مسألة تكفير المعين ولقد أحسن في الانتقاء واختيار النقل عن الأئمة الموثوق بعلمهم وفتاواهم وأحال على أماكن النقل ليرجع القارئ إلى تلك المؤلفات وذلك في حق من أراد التوسع والتأكد مع أن ما في هذه الرسالة يكفي من قصد الحق ويقتنع بهذه النقول عن العلماء المشهورين فلعل أولئك المتسرعين في تكفير الأئمة والعلماء وأتباعهم أن يقفوا عند حدهم وأن يعطوا القوس باريها ويرجعوا إلى أهل العلم الذين هم مرجع الأمة قديماً وحديثاً نسأل الله أن يوفق شباب المسلمين للقول بالحق ولزوم الصراط المستقيم وأن يهديهم سواء السبيل وصلى الله على محمد وآله وصحبه وسلم

عبدالله بن عبدالرحمن الجبرين
عضو إفتاء متقاعد

Fəzilətli Şeyx Abdullah ibn Əbdürrəhman əl-Cibrinin ﵀ təqdimatı

Rəhimli və mərhəmətli Allahın adı ilə

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Gözəl aqibət Allahdan qorxanlara, ədavət isə zalimlərə olsun! Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Təkdir heç bir şəriki yoxdur. Əvvəlkilərin və sonuncuların İlahıdır. Şəhadət edirəm ki Muhəmməd ﷺ Onun qulu və elçisidir. Sadiq və əmindir. Allahın salamı və salavatı onun ﷺ, ailəsinin, səhabələrinin və qiyamətə qədər ona yaxşılıqla tabe olanların üzərinə olsun!

Və sonra (Ustad. Doktor)\ Abdullah ibn Əbdüləziz əl-Cibrin "Müəyyən bir şəxsin Təkfir edilməsi üçün düzgün qaydalar" risaləsini oxudum. Elm və fitvalarına inanılan alimlərdən etdiyi nəqilləri yaxşı seçib süzgəcdən keçirib. Baxmayaraq ki bu risalə məşhur alimlərdən olan nəqilləri ilə haqqı qəsd edəni qane edəcək və kifayət edəcək bir şəkildədir, müəllif yenə də bu məsəldə dəqiqləşdirmək, ətraflı bilmək istəyən oxucu üçün nəqillərin yerini qeyd etmişdir. Bəlkə imamları, alimləri, onların davamçılarını Təkfir etməkdə tələsənlər bu nəqillərdə dayanar və oxu mahir atana verib qədimdə və hazırda ümmətin dönüş yeri olan elm əhlinə qayıdarlar. Allahdan ümmətin cavnalarını haqq söz deməyə, düz yolu tutmağa müvəffəq etməsini və pis yollardan çəkindirməsini diləyirəm. Allahın salamı və salavatı Peğəmbərimiz Muhəmmədin ﷺ, ailəsinin və səhabələrinin üzərinə olsun!

Abdullah ibn Əbdürrəhman əl-Cibrin ﵀
Daimi fitva heyətinin təqaüddə olan üzvü.

# تقديم فضيلة الشيخ الدكتور
# عبدالعزيز بن عبدالله الراجحي

بسم الله الرحمن الرحيم

مكتب الشيخ
عبد العزيز بن عبد الله الراجحي

الحمد لله رب العالمين، والصلاة والسلام على أشرف الأنبياء والمرسلين نبينا محمد، وعلى آله وصحبه والتابعين:

أما بعد: فقد قرأت هذا البحث الموسوم بـ «ضوابط تكفير المعين» للشيخ الدكتور / عبدالله بن عبدالعزيز الجبرين / الأستاذ بكلية المعلمين بالرياض فألفيته - على اختصاره - بحثاً قيماً مفيداً، حرر فيه مسألة تكفير المعين، بضوابطها الشرعية، واستدل بالنصوص من الكتاب والسنة، ونقل نقولاً كثيرة عن أهل العلم، وأوضح الفرق بين الكفر المطلق والكفر المعين، وبين غلط طائفتين من الناس الأولى: من لا تكفر المعين أبداً، فأغلقت باب الردة، والثانية: من تقول بكفر من وقع منه الكفر مطلقاً دون النظر إلى الشروط والموانع، فكان هذا البحث على اختصاره وافياً بالغرض،

فأسأل الله أن ينفع به، وأن يثيب جامعه ومؤلفه، وأسأل الله أن يرزقنا الإخلاص في العمل، والصدق في القول، وأن يصلح القلوب والأعمال والنيات، وأن يثبتنا على دين الإسلام حتى الممات، إنه ولي ذلك والقادر عليه،

وصلى الله على نبينا محمد وعلى آله وصحبه وسلم.

كتبه
عبدالعزيز بن عبدالله الراجحي

٢٢/٤/١٤٢٤هـ

Fəzilətli  Şeyx Əbdüləziz ibn Abdullah ər-Racihinin (Allah onu müvəffəq etsin) təqdimatı.

Rəhimli və mərhəmətli Allahın adı ilə

Əbdüləziz ibn Abdullah ər-Racihinin (Allah onu müvəffəq etsin) idarəsi.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Peyğəmbərlərin və elçilərin ən şərəflisi Muhəmmədə ﷺ, ailəsinə, səhabələrinə ﵃ və onların davamçılarına salam və salavat olsun.
Və Sonra:
Riyad şəhəri Müəllimlər fakultəsinin müəllimi Şeyx Abdullah ibn Əbdüləziz əl-Cibrinin "Müəyyən bir şəxsin Təkfir edilməsi üçün düzgün qaydalar" adlı bu bəhsini oxudum və müxtəsər olmağına baxmayaraq çox faydalı olduğunu gördüm. Bu bəhsdə müəyyən bir şəxsin Təkfir edilməsi məsələsini düzgün qaydalar ilə araşdırıb (yazıb). Quran və Sünnədən dəlilər gətirib. Çox sayda elm əhlindən nəqllər edib. Mütləq küfr ilə müəyyən bir şəxsi Təkfir etmək arasındakı fərqi açıqlayıb.  İki dəstənin xətasını bəyan edib. Birinci dəstənin: "Müəyyən bir şəxsi heç Təkfir etmədiklərini bəyan etməklə Riddə (İslamdan çıxma) qapısını bağlayıb. İkinci dəstə: "Şərtlər və maneələrə baxmadan Mütləq küfrə düşən kəsin küfrünü deyənlərdir." Buna görə də bu bəhs müxtəsər olmağına baxmayaraq məqsəd üçün kifayətdir. Allahdan diləyirəm ki, onu faydalı etsin! Onu cəm edəni və yazanı sabit etsin! Allahdan istəyirəm ki, bizi əməlimizdə isxlas, sözlərimizdə sadiqlik ilə ruziləndirsin! Qəlbləri, əməlləri və niyyətləri düzəltsin! Ölənə qədər bizi İslam dinində sabit etsin. O, buna qadirdir və edə biləndir.

Yazdı
Əbdüləziz ibn Abdullah ər-Racihi (Allah onu müvəffəq etsin)

Rəhimli və mərhəmətli Allahın adı ilə

Əhli Sünnə vəl Cəmaənin əqidəsindən məlum olan və qəbul edilən budur ki,  bir etiqadın, sözün, felin küfr və ya şirk olması hökmü ilə küfr etiqad edən, küfr olan bir əməli edən yaxud deyən müəyyən bir şəxsə bu hökmü vermək arasınada fərq vardır.
Çünki bir sözün və ya felin küfr olması şəriətin verdiyi mütləq hökmdən aslıdır. Amma Müəyyən bir şəxs İslam dairəsindən çıxaran, dində məlum olması zəruri olan, Allahı və ya İslam dinini söymək kimi küfr olan bir şeyi etiqad edərsə, onu deyər, ona əməl edərsə, həmin şəxsə hökm vermək üçün onun halını bilmək labüddür. Onun haqqında küfr hökmü vermək üçün: "Bütün şərtlər yerinə yetib ya yetməyib? Maneələr aradan qalxıb ya yox?" bunlara baxmaqla mümkündür. Əgər onun haqqında Təkfirin şərtləri yerinə yetibsə və manəelər aradan qalxıbsa ona küfr hökmü verilir. Yox əgər Təkfir etmək üçün bir və ya daha artıq şərt yoxdursa və ya Təkfirə maneə olan bir və ya artıq maneələr varsa ona küfr hökmü verilməz.[1]

---

[1] Dində məlum olması zəruri olan bir şeyi inkar edəni Təkfir etməyə mane olan manəelərdən: "Cahillik" İslam yeni qəbul etmiş bir şəxs kimi. Allahı və ya İslam dinin söyənin Təkfir olunmasına mane olan maneələrdən: "Bu işə İkrah (məcbur) olunan", beləcə bütün bu manelərin bəyanı Allahın izini ilə açıqlanacaq.
Bunun əks müqabilində hər kim qeyd etdiyimiz Təkfir ediləcək bir şeyi məsələn Allahı və ya İslam dinini bilərəkdən (qəsdən), dilinin səhvi ucbatından və ya buna oxşar bir şeyə görə deyil, bu sözün (ləfzin) söyüş, təhqirəramiz ifadə olmasını bilirsə, buna məcbur edilməyibsə, yəni haqqında Təkfirin bütün şərtləri yerinə yetib və maneələri aradan qalxıbsa bu (müəyyən) şəxsə küfr hökmü verilir. Lakin ona bu hökmü yalnız Elm əhli verə bilər. İrəlidə bunun açıqlamsı gələcək İnşəallah.
Bu təfsilatdan aydın olan Mütləq hökm ilə müəyyən bir şəxsə verilən hökm arasındakı fərq şəriət əhkamlarının çoxunda mövcuddur.
Məsələn: "Oğrunun əlinin kəsilməsi şəriətdə mütləq hökm olaraq gəlmişdir. Allah Təala buyurur: "Oğru kişi ilə oğru qadının gördükləri işin əvəzi kimi Allahdan cəza olaraq (sağ) əllərini kəsin." (əl-Maidə 38) Lakin müəyyən bir şəsxin əlini yalnız əli kəsmək üçün lazım olan şərtlər yerinə yetdikdə və maneələr aradan qalxdıqda mümkündür. Bu oğrunun həddi buluğa çatan və ağlı başında olması lazımdır. Oğurladığı mal bağlı olan bir yerdə olmalıdır. Oğurlanan mal əli kəsmək üçün lazım olam məbləğdə olmalıdr. Bu malda oğru üçün şübhə sayılacaq və ya buna oxşar bir şey olamamalıdır. Əgər əl kəsmək üçün bütün şərtlər yerinə yetər və manelər aradan qalxarsa o zaman bu müəyyən oğrunun əlinin kəsilməsinə hökm verilər.
Həmçinin övladın atasındam miras alma hökmü mütləq şəkildə gəlmişdir. Allah Təala buyurur: "Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür." (ən-Nisa 11) Lakin övlada atasının mirasından pay yalnız mirasın bütün şərtləri yerinə yetdikdə və bütün maneələr aradan qalxdıqda verilir. Atanın ölümündən sonra övladın həyatda olması, övladın atasi ilə eyni dində olması, atasını qətl etmədiyi, qul olmadığı və buna oxşar şeylərin dəqiqləşdirilməsi lazımdır. Əgər mirasın bütün şərtləri yerinə yetərsə və bütün manelər aradan qalxarsa atasının varisi olduğuna dair hökm verilər.
Həmçinin bakirəliyini itirmiş bir kəsi zina etdikdə daşqalaq edilməsi hökmü ümümən gəlmişdir. Lakin bakirəliyini itirmiş müəyyən bir şəxsi zina etdikdə daşqalaq etmək üçün bütün şərtlər yerinə yetməzsə və bütün manelər aradan qalxmazsa daşqalaq etmək olamaz. Zinanın haram olduğunu bilməlidir. Ola bilsin İslamı yeni qəbul etmiş olsun və zinanın haramlığını bilməsin. Həmçinin bakirəliyini itirmiş olamalıdır. Şübhələr və buna oxşar şeylər aradan qalxmalıdır. Daşqalaq etmək üçün bütün şərtlər yerinə yetərsə və bütün manelər aradan qalxarsa daşqalaq edilməsi üçün hökm verilər.

- Şeyxülislam ibn Teymiyyə ﷺ demişdir: "Təkfir emək üçün şərtlər və maneələr vardır. Müyyən bir şəxsə gəldikdə bu şərtlər olmasa Təkfir aradan qalxar. Çünki mütləq şəkildə edilən Təkfir bunun müəyyən bir şəxsə tətbiq edilməsi demək deyildir. Bu yalnız şərtlər yerinə yetdikdə və maneələr aradan qalxdıqda mümkündür. Bunu İmam Əhməd ﷺ və belə ümumi qaydaları – yəni: "kim belə desə və ya belə etsə küfr etmişdir" - demiş əksər alimlər bəyan edərək, bu kimi sözləri işlətmiş əksər insanları fərdi qaydada Təkfir etməmişlər. Çünki İmam Əhməd ﷺ məsələn: "Quran məxluqdur" deyən, Allahın sifətlərini qəbul etməyən, onu və zamanının digər alimlərini, onların Cəhmi əqidəsinə müvafiq olmadıqları üçün həbs edib döydürən, öldürən, tutduqları vəzifədən çıxaran, ruzilərini kəsən, şahidliklərini rədd edən və düşmənlərin əlindən onları xilas etməyən Cəhmiyyə əqidəsində olanlar ilə yaşamışdır (müamələ etmişdir). Çünki həmin dövürdə Əmr sahibi, hakimlər, qazilər Cəhmiyyə əqidəsində olanlardan idi. Cəhmiyyələr onların əqidəsində olmayan, məsələn: "Allahın isimlərni qəbul etməkdə, Qurana məxluq" deməkdə onlara müvafiq olmayan hər kəsi kafir görürdülər. Onlara kafirlərə kəsdikləri hökmlə hökm kəsirdilər..."
  Sonra isə İmam Əhməd ﷺ onu həbs edib döydürən xəlifə və başqaları üçün dua edib, onlar üçün bağışlanma diləmişdir. Ona etdiklər zülmü, dəvət etdikləri sözlər küfr olmasına baxmayaraq haqqını onlara halal etmişdir. Əgər onlar mürtəd idilərsə onlar üçün bağışlanma diləmək caiz deyildir. Çünki kafirlər üçün bağışlanma diləmək Quran, Sünnə və İcma ilə caiz deyildir. "Quran məxluqdur", "Allah Təala axirətdə görülməyəcək" deyən Cəhmiyyədən olan fərdləri kafir görmədikləri haqda onun və ondan qeyri alimlərin söz və əməlləri açıq aydındır. Bununla belə İmam Əhməddən ﷺ onların yəni Cəhmiyyənin əqidəsində olan, dediklərni deyən bəzi fərdi şəxəsləri Təkfir etməsi də nəql olunmuşdur... Onun bu sözləri bu təfsilata yönəldilir: "O, kimi fərdi şəkildə Təkfir etmişdirsə, o şəxs haqda şərtlərin yerinə yetməsi və maneələrin aradan qalxması sübuta yetmişdir. Kimi isə Təkfir etməmişdirsə deməli onun haqda bu şərtlər və maneələr tapılmamışdır." Şeyxülislam ibn Teymiyynin ﷺ sözü müxtəsər olaraq bitdi.[1]

- Şeyxülislam ibn Teymiyyə ﷺ həmçinin demişdir: "Quran və Sünnədə əzab vəd edən dəlillər, Alimlərin Təkfir, Təfsiq və buna bənzər haqda dəlilləri bunun müəyyən bir şəxsə tətbiq edilməsi demək deyildir. Bu yalnız şərtlər yerinə yetdikdə və maneələr aradan qalxdıqda mümkündür.[2]
- Şeyxülislam ibn Teymiyyə ﷺ həmçinin Batiniyyə əqidəsinə məxsus bəzi küfr sözləri deyən haqda demişdir: "Bu sözlər küfrdür! Lakin müəyyən şəxs üçün Təkfir hökmü, hüccətin qalxması ilə yerinə yetir. Elə bir hüccət ki, onu tərk edən kafir olar. Belə sözləri deyənlər haqda mütləq Təkfir deyilirsə, bu mütləq deyilən əzab vəd edən dəlillər kimidir ki, bu vədin hökmü müəyyən bir şəxsə şərtlərin yerinə yetməsi və maneələrin aradan qalxması sübuta

[1] "Məcmu əl-Fətəva" 12 cild səh 487-489, 498
[2] "Məcmu əl-Fətəva" 1 cild səh 372, Həmçinin eyni mənbədə 35 cild səh 165-166 və Şeyxülislam ibn Teymiyyənin ﷺ: "Məsail əl-Mərdiniyyə" risləsi səh 71.

yetdikdə mümkündür. Buna görə də alimlər Mütləq Təkfir deməklərinə baxmayaraq hər söz deyən fərdi şəxs haqda kafirlərə verdikləri hökmü verməmişdirlər."[1]

- Əbul İzz əl-Hənəfi ﷬ "Təhaviyə əqidəsinin şərhi" kitabında müəyyən bir şəxsin Təkfiri haqda danışarkən demişdir: "Müyyən bir kəs ola bilər ki, xəta etmiş və xətası bağışlanan müctəhid olsun. Yaxud başqa dəlillərin olması xəbəri ona çatmayan bir kəs olsun və onun imanın və savabların böyük olması Allahın rəhmətini ona vacib etsin!... Sonra əgər söz özü küfürdürsə deyilir ki bu küfürdür. Onu deyən şəxs isə şərtlərin yerinə yetməsi və maneələrin aradan qalxması ilə kafir olur."[2]
- Şeyx Abdullah ibn Əbdüllətif, qardaşı Şeyx İbrahim ibn Əbdüllətif və Şeyx Süleyman ibn Suhman demişdir: "Küfr olan bir sözü deyən müəyyən bir kəsin Təkfir məsələsi məlumdur. Deyilir: "Kim bu sözü desə kafir olar. Lakin müəyyən bir şəxs bu sözü dedikdə ona, hüccətin qalxması ilə küfr hökmü verilir. Elə bir hüccət ki, onu tərk edən kafir olur."[3]
- Şeyximiz Muhammad ibn Useymin ﷬ demişdir: "Təkfir hökmü verməzdən əvvəl iki şeyi nəzərə almaq vacibdir. Birinci: "Allahın adından yalan iftira edilməsin deyə, Quran və sünnənin bu əməlin küfr olunmasına dəlalət etməsi." İkinci: "Bu hökmün müəyyən bir şəxsə tətbiqi üçün şərtlərin yerinə yetməsi və maneələrin aradan qalxması."[4]
- Şeyx Süleyman ibn Nasir əl-Alvan (Allah onu müvəffəq) "ət-Tibyan Şərh Nəvaqid əl-İslam" risaləsinin sonunda demişdir: "Əvvəldə keçən İslamdan çıxaran, əməlləri batil edən, sahibini əbədi olaraq oda salan əməllər bəlli oldusa, bil ki müsəlman ola bilər Quran, Sünnənin və ümmətin sələflərinin icma etdiyi küfr olub islamdan çıxaran bir söz desin və ya bir əməl etsin. Lakin elm əhlinə görə bir sözün küfr olması ilə müəyyən bir kəsin Təkfiri arasında heç də bağlılıq olması demək deyildir. Hər küfr olan əməli edənə küfr hökmü verilməz. Çünki söz və ya əməl küfr ola bilər lakin bu sözü deyənə və ya əməl edənə küfr hökmü yalnız şərti ilə olur. Çünki onun haqqında Təkfirin şərtləri sübüt olmalı maneələr isə aradan qalxmalıdır. Bu şəxs ola bilsin İslamı yeni qəbul etmiş olsun, ola bilər küfr olan bir əməl etsin lakin bu əməlin küfr[5] olduğunu bilməsin. Ona bəyan edildikdə bu əməldən qayıtsın. Ola bilsin ki, bir şeyi xəta edərək yozduğu Təvil səbəbindən inkar etsin. Yaxud Təkfir etməyə mane olan digər maneələr olsun. Bu əzəmətli bir əsasdır (qaydadır) ki, onu yaxşı başa düşüb əhmiyyət vermək lazımdır. Çünki Təkfir etmək məxluqun haqqı deyildir ki, istədiyini öz havasına uyğun Təkfir etsin. Əksinə bu məsələdə Quran, Sünnəyə qayıtmaq və Saleh sələflərin başa düşdüyü kimi qəbul etmək vacibdir. Sonra Buxari ﷬ və Müslimin ﷬ ittifaq etdiyi, öldükdən sonra Allah Təala onu

---

[1] Şeyxülislam ibn Teymiyyənin ﷬: "Buğyatul Murtəd Firraddi Aləl Mutəfəlsifə vəl Qaramita" kitabı səh 353, 354. Şeyxülislam- İslam ﷬ həmçinin: "Məcmu əl-Fətəva" 10 cild səh 329, 330 - da demişdir: "Mütləq lənət hələ, maneələr varsa lənətin müəyyən bir şəxsə tətbiq edilməsi, ona çatması demək deyildir. Mütləq şəkildə edilən Təkfir və mütləq əzab vədd edən dəllilər də belədir. Ona görədə Quran və Sünnədə olan Mütləq əzab vədi şərtlərin yerinə yetməsinin və maneələrin aradan qalxmasının sübutu ilə şərtdir." Həmçin bax: "Buğyatul Murtəd" səh 311.

[2] "Təhaviyə əqidəsinin şərhi" səh 437.

[3] "əd-Dürər əs-Səniyyə" 10 cild səh 432, 433

[4] Şeyx ibn Useyminin ﷬ "Məcmu əl-Fətəva" -sı (Fəhd əs-Suleymanın cəm etdiyi 2 cild səh 134)

[5] "Haram olduğunu bilməsin" deyilsəydi daha əfzəl idi. Müəyən bir şəxsin Təkfir edilməsi üçün şərtləri bəyan edərkən bu haqda danışılacaq.

həşr etməsin deyə övladlarına onu yandırıb küləyə külünü sovrulmasını əmr edən kişinin hekayəsini zikr edir. Sonra Şeyxülislam ibn Teymiyyədən ﷺ Allah Təalanın bu kişini cahilliyinə və Rəbbindən qorxduğuna görə üzürlü hesab etməsini nəql edir. Sonra isə belə deyir: "Belə nəticə çıxır ki, məsələni tədqiq edən alimlər Felin Təkfiri ilə Failin Təkfiri ayırırlar. Həmçinin bidətçi hökmü vermək də belədir. Bir sözə və ya felə bidət hökmü vermək ilə bidət sözü deyə və ya edən arasında fərq vardır. Hər bidət edən bidətçi olmaz. Sələflərin həyatını oxuyan bu sözün həqiqətinə varar. Bil ki, bu onların məzhəbi və yoludur. Həmçinin onların adil, insaflı, haqq sözlü və məxluqatın hidayət olması üçün necə həris olduğunu görərsən. Bu Allah Təlanın onlara xas olaraq verdiyi faydalı elm və saleh əməl səbəbindəndir. Bütün insanların üzərinə vacib olan budirki, bütün din Allaha məxsus olsun deyə onların qəsdi insaf və ədalətlə haqqı bəyan edib batili yox etmək olsun. Alləmlərin Rəbbi olan Allaha həmd olsun!" Süleyman ibn əl-Alvanın - Allah onu müvəffəq etsin - sözü bitdi."[1]

Müsəlman olan bir insan, şəriət dəlillərinin bu feli edənin islamdan çıxmasına dəlalət etdiyi bəzi böyük Küfr və ya böyük Şirkin növlərindən birinə düşə bilər. Elm Əhli deyir: "Kim bunu etsə kafir olar." Lakin bunula müəyyən bir müsəlmana küfr hökmü verilmir. Bu ona küfr hökmü vermək üçün olan şərtlərdən birinin olmamasına görədir. Yaxud ona bu hökmü verməyə mane olan maneələr səbəbindəndir.

❖ Müəyyən bir kəsin Təkfir edilməsi üçün şərtlər

- Təkfir olunacaq şeyin haram olduğunu bilməsi. Allahın izni ilə buna elmin ziddi olan Cahilik maneəsi haqqında danışdıqda ətraflı toxunacağıq.
- Bu şərtdən bu feli bilərəkdən (qəsdən) etmək.
- Bu şərtdən bunu istəyərək (seçimin olması) etmək. Yəni Təkfir olunacaq feli və ya sözü deməyə məcbur olunmasın. Necə ki, Allah Təala buyurur: "Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən) şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu ağır təhlükə gözləyir). Lakin qəlbən küfrə razı olanlara (qəlbində könüllü surətdə küfrə yer verənlərə) Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!"[2] Buna Elm əhli icma etmişdir.

Elm əhlinin məcbur edilənin üzürlü hesab edilib və edilmədiyi məsələlər, onların növləri (hansı formada olması), zərər dəyəcəyi yəqin olduğundan qorxmağın bu məsələyə aid olub olmaması

[1] "ət-Tibyan Şərh Nəvaqid əl-İslam" 6 - ci nəşr, əlavə səh 75-76. Şeyx bu nəşrin müqəddiməsində 3 - cü səhifədə belə deyir: "Şərhin sonuna əlavə olaraq Felin (əməlin) Təkfiri ilə Failin (əmli eədnin) arasındakı fərq haqda yazmışam. Çünki bəzi insanlar bu ikisini qarışdırır və elə bilir ki, bunlar arasında bağlılıq var. Əlavədə açıqlandığı kimi bunun səhv olduğunu görəcəksən.
[2] "ən-Nəhl" surəsi 106 cı ayə.

barədə zikr edilməsi uzun vaxt aparacaq təfsilatlı sözləri vardır. Həmçinin İkrahın (məcbur edilmək) şərtləri haqda.[1]

Həmçinin qeyd etdiyimiz kimi Müsəlman olan müəyyən bir şəxsə küfr hökmümün verilməməsinin səbəblərindən müəyən kəsə küfr hökmünün verilməsinə mane olan maneələrin olmasıdır.

Müəyyən kəsə küfr hökmünün verilməsinə mane olan maneələrdən:

- **Cahillik:**

- İmam əş-Şafii ﷺ Quran və Sünnədə sabit olan ad və sifətlər haqda danışarkən demişdir: "Özünə hüccət çatandan sonra buna qarşı çıxan artıq kafir olar. Hüccət çatmadan öncə o cahilliyi ilə üzürlü sayılır..."[2]

- Şeyxülislam ibn Teymiyyə ﷺ demişdir: "Müyyən bir kəsin Təkfiri və qətli Nəbəvi hüccətin çatması ilədir. Hansı ki, ona (hüccətə) müxalif olan Təkfir edilir. Əks halda dindən bir şeyə cahil olan Təkfir edilməz."[3]

- Həmçinin Şeyxülislam ibn Teymiyyə ﷺ bəzi Təkfir ediləcək şeylər haqda danışarkən demişdir: "Lakin insanlardan elələri var ki, bəzi bu əhkamlar hadqqında cahildirlər və üzürlüdürlər. Peyğəmbərlik risaləsi nöqteyindən bir kimsəyə hüccət çatmamış ona Təkfir hökmü verilməz."[4]

- Hafiz İbnül Qeyyim ﷺ bilərəkdən (qəsddən) İslamın fərzlərindən birini və ya Allahın sifətlərindən birini yaxud Allahın xəbər verdiyi bir xəbəri inkar edəni zikr etdikdən sonra demişdir: "Amma bunu cahillik və ya Təvil səbəbi ilə inkar edənə üzr vardır və bu şəxs Təkfir edilməz."[5]

---

[1] Bax İkrah maneəsi, hansı formada olması, vəsfləri v ə alimlərin bu haqda sözləri. Namazın şəninin əzəmətliyi kitabı səh 930. Həmçinin "əl-Muğni" 12- ci cild səh 292-294, İbn əl-Battalın ﷺ Səhih Buxariyə şərhi İkrah kitabın əvvəli 8 –ci cild səh 290-294, həmçinin ibn Həcərin ﷺ Səhih Buxariyə şərhi 12 ci cild səh 311-315, eləcə də İyninin ﷺ Səhih Buxariyə şərhi 24 cü cild səh 95-98, Qurtubinin ﷺ təfsiri (əl-Bəqərə surəsinin axırıncı ayəsinin təfsiri 3 cü cild səh 432), İbn əl-Vazirin ﷺ "İsar əl-Haqq" kitabı səh 395, 397, "əl-Bəhr ər-Raiq" 5 ci cild səh 134, Qurtubi ﷺ, İbn Kəsir ﷺ, əş-Şovkəninin ﷺ "Ali İmran" surəsinin 28 ci ayəsinin təfsiri, "Cami ulum vəl Hikəm" 39 cu hədis, "Səbil ən-Nəcat vəl Fikək"14 cü dəlil, İbn Teymiyyənin ﷺ "Təkfirdə mənhəci" risaləsi 1 ci cild səh 266-270, "Dəvabit ət-Təkfir" kitabı səh 365, 385, "Nəvaqidil İman əl-Etiqadiyyə və Dəvabit ətTəkfir indəs Sələf" 2 ci cild səh 5-19.

[2] "Muxtəsər Uluv" səh 177, "İctima Cuyuş əl-İsləmiyyə" 165.

[3] əl-İstiğasə 1 ci cild səh 381, 382.

[4] "Məcmu əl-Fətavə" 11 ci cild səh 406.

[5] "Mədəric əs-Salihin:" 1 ci cild səh 367.

- Şeyxülislam Muhəmməd ibn Əbdülvəhhab ﷺ demişdir: “Düşmənlərimin mənim zənnə qapanaraq kiməsə kafir deməyim, məni dost tutmadığına və yaxud hüccət çatmayan kimsəyə kafir deməyim haqda dedikləri əzəmətli bir böhtandır.”[1]

- Şeyx Əbdüllətifin oğulları Abdullah və İbrahim və Şeyx Sülüyman Suhman demişdir: “Deyilən söz bəzən (Quran və Sünnədən olan) bəzi dəlilləri rədd etməklə küfr olur. Lakin söz sahibinə cahillik maneəsinin olaması, dəlilin dəlalət etməsi və ya etibarsız sayılması haqda elminin olmaması ehtimalı səbəbindən küfr hökmü verilmir. Çünki şəriətlər çatdıqdan sonra vacib olur. Bunu Şeyxülislam ﷺ çox kitablarında zikr etmişdir.”[2]

- Səudiyyə Ərəbistanı Şeyx Əbdüləziz ibn Bazın ﷺ başçılığı, müavini Əbd ər-Razzaq Əfifi ﷺ, Şeyx Abdullah ibn Qəud ﷺ, Abdullah ibn Ğudeyyanın ﷺ üzvlüyü altında Fitvalar və Elmi Tədqiqatlar üzrə Daimi Heyətə,: “Qəbirlərə ibadət edənlərin cahilliklərinə görə üzürlü olmaları və hansı işlərdə cahiliyin üzr olması” haqda verilən sualın cavabında belə deyilir: “Bir insana dini məslələrdə cahilliyinə görə üzr olunub olunmaması, təbliğin ona çatıb çatmamasına, məsələnin özünün aydın olub olması və insalanların düşüncəsinin qüvvət və zəiflikdə fərqləndiyinə görə hökmü də müxtəlif olur....”[3]

- Şeyximiz Muhammad ibn Saleh ibn Useymin ﷺ demişdir: “Təkfirdə cahillik iki növdür:

  1-Cahillik İslamdan qeyri dinə mənsub olan şəxsdə olsun və ya həmin şəxs heç bir dinə mənsub olmasın. Ağlına belə gəlməsin ki, etdiyi dinə müxalifdir. Bu dünyada ona zahirən əhkamlar - yəni kafir əhkamları tətbiq edilir. Amma axirətdə isə əmri Allahadır.

  2- Cahillik İslam dinində olan şəxsdə olsun. Lakin o bu Təkfir edilən əməl üzərində yaşasın. Ağlına belə gəlməsin ki, etdiyi dinə müxalifdir və onu bunu xatırladan olmasın. Bu dünyada ona zahirən İslam əhkamları tətbq edilir. Amma axirətdə isə əmri Allahadır. Buna Quran, Sünnə və Elm əhlinin sözləri dəlalət edir.”[4]

- Şeyx doktor Əbdüləziz ibn Muhəmməd ibn Əbdüllətif (Allah onu müvəffəq etsin) demişdir: “Müəyyən bir kəsi Təkfir etməyə mane olan amillərdən Cahilliyin üzr olmasıdır. Lazımi qədər manelərin olmasına baxmayaraq sadəcə bu məsələ ilə kifayətlənməməyə səbəb bu haqda söz-söhbətin və qarışıqlığın çox olmasıdır. Bu məsələyə insalar ifrata varmaq və ya səhlənkarlıq

---

[1] “Məcmu əş-Şeyx Muhəməd ibn Əbdülvəhhab” ﷺ 12 ci cild səh 60.

[2] “əd-Dürər əs-Səniyyə” 10 cu cil səh 433

[3] “Fitvalar və Elmi Tədqiqatlar üzrə Daimi Heyətin fitvalar toplusu” 2 ci cild səh 97 Fitva (11043)

[4] Şeyx ibn Useyminin ﷺ “Məcmu əl-Fətəva” - sı (Fəhd əs-Süleymanın cəm etdiyi 2 cild səh 130-131) yuxarıda qeyd edildiyi kimi Şeyx bu sözünü zikr etdikdən sonra Quran, Sünnədən bu maneə üçün dəlillər nəql edir. Sonra Şeyxülislam ibn Teymiyyə ﷺ və Şeyxülislam Muhəmməd ibn Əbdülvəhhabdan ﷺ bu maneəni isbat etmək və bəzi dəlilləri bəyan etmək üçün çoxlu nəqllər edir.

etməklə yanaşıblar. Bəziləri Cahilliyi mütləq olaraq üzr görür. Bəziləri isə mütləq olaraq görmür. Haqq isə onların arasındadır. Cahilliyin üzr olması hələ də bizim əsrimizdə belə zahirdir. Çünki əməl edən Elm əhli azalıb, insanlara batili, küfrü bəzəyərək, ona don geydirənlər isə çoxalıb." Şeyxin sözü müxtəsər olaraq bitdi."[1]
Elm əhlinin müəyyən bir şəxsə küfr hökmü vermək üçün cahiliyin manə olduğu və maneə olmadığı məsələlər haqqında zikr edilməsi çox vaxt aparan təfsilatlı sözləri vardır.[2]

Bəzi alimlər bu manenin yəni Cahillik maneəsinin dəlili kimi "Heç bir xeyir etməyən kişinin" hekayəsini qeyd edirlər. Kişi övladlarına öldükdən sona onu yandırıb şiddətli küləkli bir gündə külünü dənizə səpələmələrini əmr edir və deyir: "Allah And olsun ki Allah Təala məni toplamağa qadir olsa mənə heç kimə vermədiyi bir əzab verəcəkdir. Allah Təala onu bağışlayır." Buxari ﷺ və Müslim ﷺ ittifaq etmişlər[3]

- Şeyxülislam ibn Teymiyyə ﷺ bu hədisi zikr etdikdən sonra demişdir: "Bu insan Allah Təalanın Qüdrətində və səpələndikdən sonra yenidən qaytarmaq iqtidarında olmadığına şəkk etmişdir. Əksinə o qaytarılmayacağına etiqad etdi. Bu isə müsəlmanların ittifaqı ilə küfrdür. Lakin o, cahil idi və bunu bilmirdi. Mömin idi Allahın ona əzab verməsindən qorxurdu. Buna görə də Allah onu bağışladı."[4]

---

[1] "Nəvaqidil İman əl-Qovliyyə vəl əməliyyə" əl-Üzr bil Cəhl səh 59, 64.
[2] Bax əl-Fisal cild 3 səh 249, "əl-Muğni"Riddə kitabı cild 12 səh 277, əş-Şifa cild 2 səh 523, 524, 529, 530, "Minhəc əs-Sünnə" cild 5 səh 88-125, "Müxtəsər Fətavə əl-Misriyyə" səh 247, 248, "ər-Rəd əlal Əxnai"səh 61, 62, "Məcmu əl-Fətəva" cil 35, səh 164,165, "əl-İstiğasə" cild 2 səh 629, 630, "Mufid əl-Mustəfid fi kufri tərik ət-Tovhid", "əd-Dürər əs-Səniyyə" cild 1 səh 235, 236, 520, 521, və cild 10 səh 368, 474, Məcmu ət-Tovhid cild 1 səh 54, Şeyx Abdullah ibn Əbdürrəhman Əbu Batinin "Müəyyən bir şəxsi Təkfir etmək" adlı risaləsi və Şeyx İshaq ibn Əbdürrəhmanın "Müəyyən bir şəxsi Təkfir etməyin hökmü" risaləsi (hər ikisi "əd-Dürər əs-Səniyyənin" tərkibində cild 10 səh 351-375 nəşr edilib), "Fətavə əl-Ləcnə əd-Dəimə" cild 2 səh 96-100 fitva (11403), Şeyximiz Əbdüləziz ibn Bazın ﷺ "Fitvalar toplusu" (ət-Tayarın cəm etdiyi cild 2 səh 528-529) "Təkfirin düzgün qaydaları", "Müyyən bir şəxsin Təkfiri"risaləsi , "Nəvaqidil İman əl-Qovliyyə vəl əməliyyə", "əl-Üzr bil Cəhl risalasi", "ət-Tibyan Şərh Nəvaqid əl-İslam" risaləsinin əlavəsi səh 75-76, Doktor Muhəmməd əl-Arusinin "Məsəil əl-MuştəRakə "səh 303 və davamı. Həmçinin bax: "Əbdürrəzzaq Məaşin, Şeyximizi Əbdürrəhman ibn Nasir əl-Barrakın (Allah onu müvəffəq etsin) nəzarəti altında nəşr edilmiş "əl-Cəhl bi məsəil əl-Etiqad və hokmihi" kitabı, Muhəmməd əl-Vuheybinin "Nəvaqidul əl-İman əl-Etiqadiyyə və Dəvabit ət-Təkfir indəs Sələf" cil 1 səh 225-301 bu kitablarda bu maneənin məsələləri haqda təfsilat vardır.
[3] Səhih Buxari əl-Ənbiya kitabı (3478, 3481), Səhih Müslim Tövbə kitabı (2756-2757) Əbu Hüreyrənin ﷺ və Əbu Səidin ﷺ rəvayət etdiyi hədisdən. Buxari isə (3479) Hüzeyfənin ﷺ hədisindən rəvayət etmişdir. Həmçinin bu hədisi bir neçə səhabə rəvayət etmişdir. Onlaraın hədisləri Buxari və Müslimin səhhində yox, digər kitablarda nəql edilmişdir. Şeyxülislam ibn Teymiyyə Məcmu əl-Fətəvada cild 12 səh 491 və İbn əl-Vəzir İsar əl-Haqq kitabında səh 394 bu hədisin mütavatir olduğunu qeyd etmişlər.
[4] Məcmu əl-Fətəva cild 3 səh 230-231, bax əd-Dürər əs-Səniyyə cild 12 səh 73-74, Əbu Muhəmməd ibn Həzm əl-Fisal kitabında cild 3 səh 252 demişdir: "Bu insan ölənə kimi Allahın onun külünü cəm edə biləcyindən və onu dirildə biləcəyindən cahil oldu. Ona iqrarı, qorxusu və cahilliyi bağışlandı.", Bax "Muxtələfil Hədis" səh 81, "İsar əl-Haqq" səh 394.

- Şeyxülislam ibn Teyymiyyə ﷺ həmçinin demişdir: "O belə edərsə Allah Təalanın onu qaytarmaq iqtidarında olmadığına və ya onu qaytarmayacağına etiqad etdi. Yaxud bunu caiz gördü. Hər ikisi küfürdür. Lakin o, cahil idi və ona haqq bəyan olmamışdı. Buna görə də bağışlandı."[1]
- Hafiz İbnül Qeyyim ﷺ bu hədisi zikr etdikdən sonra demişdir: "Buna baxmayaraq cahil olduğu üçün Allah Təala onu bağışladı və ona rəhm etdi. Çünki bu etdiyi onun biliyinin miqdarı səbəbi ilə idi. Allahın onu qaytaracağına inadından və yalan saydığından dolayı inkar etməmişdir. "[2]

Bəzi Elm əhli bu maneəyə dəlil olaraq çox sayda başqa dəlillər də zikr etmişdirlər.[3]

Müəyyən kəsə küfr hökmünün verilməsinə mane olan maneələrdən:

- **Təvil (yozmaq)**

Təvilin məsası: "Müsəlman olan bir şəxsin küfr olan bir şeyə şəriətin icazə verdiyini yaxud mübah olduğunu etiqad edərək və səhih hesab etdiyi bir dəlilə əsaslanaraq əməl etməsidir. Yaxud bütün bu kimi işlərdə xəta etməsinə ramən, özünün üzürlü olduğnu hesab etməsidir."

Müsəlman olan şəxs İslam dairəsindən çıxaran bir şeyi etiqad edəsə, ona əməl edib və ya deyərsə və onun bu xüsusda Təvil şübhəsi varsa, onun bu şübhədə olması mümkündürsə və məsələ Təvil edilə biləcəyi ehtimal olunandırsa, şübhə zəif olsa belə o şəxs bunda üzürlüdür.

Bəzi alimlər Əhli Sünnənin bu məsəldə icmasını nəql etmişlər.[4]

---

[1] İbn Teyymiyyənin ﷺ "əl-İstiğasə firrədi Aləl Bəkri kitabı" cild 1 səh 383

[2] Bax "Mədəric əs-Səlikin" cild 1 səh 368.

[3] Bax "əl-Fisal" cild 3 səh 251-253 də bu maneə üçün başqa 3 dəlil də zikr etmişdir. Həmçinin bax "Mİnhəc ibn Teymiyyə fitTəkfir" cild 1 səh 243-249 da müəllif İbn Teymiyyədən ﷺ bu maneə üçün doqquz dəlil nəql etmişdir. Bax "əl-Qatu vəz Zan" kitabı cild 2 səh 469-479, Alimlərin müəyyən bir şəxsin Təkfir edilməsinə maneə olan məsələr haqqındakı sözlərinə işarə edərkən qeyd edilən mənbələrdə bu maneəyə aid çoxlu dəlillər vardır.

[4] İmam Şafii ﷺ "əl-Um" kitabında əl-Aqdiyə (hökmlər) fəsli cild 6 səh 205 demişdir: "Onların yolunu davam etdirən bu ümətin sələflərindən, nədə ki Təbiinlərindən bir şəxsin şəhadətini Təvil səbəbi ilə rədd etdiyini (qəbul etmədiyini) bilmirəm. Onu xətakar, zəlalətə düşmüş, ona haram olanı halal görən hesab etsə, bu Təvil qanı, malı halal görmə və ya sözdə həddini aşma dərəcəsinə çatsa belə, Təvil etdiyi ehtimalı olduğu üçün şəhadətindən heç bir şeyi rədd etməşlər. " Əbu Muhəmməd ibn Həzm ﷺ "əl-Fisal" kitabında cild 3 səh 247 demişdir: "Bir dəsətə elm əhli bu fikirdədirlər ki, müsəlman etiaq və ya fitvada dediyi söz səbindən nə kafir nə də fasiq olmaz. İctihad edən və haqq hesab etdiyinə etiqad edən hər bir kəs hər bir halda savabını alır. Bu söz bu məsələdə rəyini bildiyimz bütün səhabələrin sözüdür. Bu məsəldə onların əslən xilaf etdiyini bilmirik. Yalnız qeyd etdiyimiz, "namazı vaxtı çıxana kimi bilərəkdən tərk edənin Təkfiri" haqda onların ixtilafı istisnadır." Həmçin bax: İbn Teymiyyənin ﷺ "Məcmu əl-Fətəva" sı cild 5 səh 563.

- Şeyxülislam ibn Teymiyyə ﷀ demişdir: “Peyğəmbərə ﷺ tabeçilik qəsd edərək Təvil edən kafir olmur. İctihad edib xəta etsə heç fasiq də olmur. Elmi məsələlərdə bu insanlar arasında məşhurdur. Amma əqidə məsələlərində xəta edənləri çox insanlar Təkfir etmişlər. Bu söz nə bir Səhabədən ﷰ, nə bir Təbiindən və nə də yaxşılıqla onların yolunu davam edənlərin heç birindən bilinməyib. Əslində isə bu bidət əhlinin sözlərindəndir.”[1]

- Şeyx Əbdürrahman ibn Nasir əs-Sədi ﷀ demişdir: “Qiblə əhlindən Peyğəmbərə ﷺ iman edib onun hər deyini təsdiqləmələrinə, hər dediyinin haqq olduğunu iman etmələrinə, ona mülazim olmalarına baxmayaraq, Quran və Sünnəni başa düşməkdə xəta edib zəlalətə düşən Təvil edənlər bəzi xəbəri və ya elmi məsələlərdə xəta ediblər. Quran və Sünnə onların İslam dairəsindən çıxmadıqlarına və onlara kafir hökmləri verilməməsinə dəlalət etmişdir. Səhabələr ﷺ, təbinlər və onlardan sonra sələf imamları buna icma (ittifaq) etmişlər.”[2]

- Şeyxülislam ibn Teymiyyə ﷀ demişdir: “Buna baxmayaraq daima mən və mənimlə oturanlar mənim haqqımda bilir ki, mən müəyyən bir kəsin Təkfirə, təfsiqə və günaha nisbət olunmasını insanların içində ən çox qadağan edənəm. Yalnız risalət hüccəti ona çatdıqdan sonra ona müxalif olarsa bəzi halda kafir, bazi halda fasiq, bəzi halda asi olur. Mən Allah Təalanın bu ümmətin xətasını bağışladığı qərarındayam. Bu həm qövlü xəbəri, həmdə əməli məsələlərdə edilən xətalara aiddir. Onlara bəyan edirdim ki, sələflərdən bu və bunu deyənin Təkfiri haqda nəql edilən mütləq sözləri həmçinin haqdır. Lakin mütləq ilə müəyyəni ayırmaq vacibdir. Bu da ümmətin böyük əsaslar məsələri xüsusunda ixtilaf etdikləri ilk məsələdir. Bu da “əzab vəd edən dəlillər” məsələsidir. "Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər."[3] Digər əzab vəd edən dəlillərdə belədir. Kim belə etsə ona bu olar, bunlar hamısı mütləq və umumidir. Təkfir də əzab vəd edən dəlillərdəndir. Sözü Peyğəmbərin ﷺ dediyini yalan saya bilər lakin şəxs İslamı yeni qəbul etmiş olsun və ya uzaq olan bir kənddə böyüsün (yaşasın). Belə insan ona huccət çatmamış inkar etdiyi bir şeyə görə kafir olmaz. Ola bilər bu şəxs bu dəlilləri heç eşitməsin və ya eşitsin lakin onun üçün sübuta yetməsin. Yaxud ona başqa bir şey ərz olsun və təvil etməsini vacib etsin və ya xəta etsin.” Sonra Allah Təala onu həşr etməsin deyə övladlarına onu yandırıb küləyə külünü sovrulmasını əmr edən kişinin və Allahın onu bağışlamsı haqda hekayəni zikr etdi. Sonra isə

---

İbn Battal ﷀ cild 5 səh 595 demişdir: “Mühəlləb ﷀ və başqaları demişdir: “Alimlər arasında hər bir Təvil edənin üzürlü olmasında və günah daşımamasında ixtilaf yoxdur. Etdiyi Təvil ərəb dilində mükün olan və icazə veriləndirsə və ya elmdə buna dəlalət edən varsa üzürlü hesab edilir.”
Hafiz “əl-Fəth”- də Mürtədlərin tövbə etdirilməsi kitabında cild 12 səh 304 demişdir: “Alimlər demişdir: “Hər bir Təvil edən əgər Təvili ərəb dilində mükündürsə və ya elmdə buna dəlalət edən varsa üzürlü hesab edilir.”

[1] “Minhəc əs-Sünnə” cild 5 səh 239.

[2] Bax: “İrşad ilə Mərifətil Əhkam” səh 207.

[3] ən-Nisa: 10

belə dedi: "Peyğəmbərə ﷺ tabe olmağa həris olub Təvil edən ictihad əhli bağışlnmağa bundan daha layiqdir." Şeyxülislam İbn Teymiyyənin ؒ sözü müxtəsər olaraq bitdi.[1]

- Şeyxülislam ibn Teymiyyə ؒ Təkfirin şərtləri yerinə yetməmiş və maneələr ardan qalxmamış müəyyən bir şəxsin Təkfir edilməməsindən danışdıqdan sonra deyir: "Bu əsasa dəlil Quran, Sünnə , İcma və Etibardır (Ağıldır)! Bundan sonra dəlilləri zikr edir və deyir: "Allahın kitabı və onu təfsir edən Sünnə ilə Allahın bu ümmətə, xətasını və unutqanlığını bağışlaması sabit olubsa, bu ümumi və hifz olunan bir işdir. Şəriətdə Allah Təalanın bu ümmətdən xəta edənə əzab verəcəyini vacib edəcək bir şey yoxdur... Bu bilindisə bu və buna bənzər cahil insanlara, fərdi şəkildə şəriət dəlilləri ilə hüccət çatdırılana qədər kafir demək olmaz. Məhz hüccət çatdıqdan sonra həmin insanların peyğəmbərlərə müxalif olduqları aşkar ediləcəkdir. Onların danışdıqları sözlərin küfr olması şübhə doğurmur. Lakin hər bir fərdi insanın kafir sayılması üçün qayda belədir. Bidətlərin birinin digərindən daha pis olması bir faktdır. Bəzi bidətçilərdə müşahidə olunan iman gücü, digərində müşahidə olunmur. Hüccət çatdırılana və həqiqət bəyan edilənə qədər, heç kəsin səhv edən müsəlmana kafir deməyə haqqı yoxdur. İman gətirdiyi yəqinliklə bəlli olan kimsənin imanı, şəkk etməklə getməz. Onun imanı, hüccət çatdıqdan və şübhəsi dəf edildikdən sonra gedər"[2].

- Şeyximiz Muhamməd ibn Useymin ؒ müəyyən bir şəxsin Təkfiri haqqında danışarkər demişdir: "Həmçinin təfkir olunacaq şeydə maneələrdən onun Təvil şübhəsi olmasıdır. Belə ki, özünü haqq üzərində zənn etsin. Çünki o, günah və müxalif olmağı qəsd etməmişdir. Ona görə də Allah Təlanın bu kəlamına daxildir: "Etdiyiniz səhvlərə görə sizə günah yoxdur. Lakin qəsdən etdiyiniz işlərdən ötrü günah vardır."[3] Çünki bu onun cəhdinin nəticəsidir (bacardığı budur). Allah Təlanın bu kəlamına daxildir: "Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər."[4]

Elm əhlinin, Təvilin müəyyən şəxsin Təkfir hökmü verməyə maneə hesab edilən və edilmədiyi məsələlər haqda uzun vaxt aparacaq təfsilatlı sözləri vardır.[5]

---

[1] "Məcmu əl-Fətəva" cild 3 səh 229-231.

[2] "Məcmu əl-Fətəva" cild 12 səh 498, 449, 500, 501.

[3] "əl-Əhzab" surəsi 5 ci ayə.

[4] "əl-Bəqəra" surəsi 286 cı ayə.

[5] Şeyx Əbdürrəhman əs-Sədi ؒ yuxarıda nəql etdiyimiz Təvilin üzr olmasını və küfrə düşməkdə bidət əhlinin üç qismə ayrıldığını: "Bir qisim üzürlü hesab edilməz. Əksinə haqqı bildiyinə və müxalif olmağa israr etdiyi üçün Təkfir olunar. Digər qism isə haqqı axtarmadığına görə günah daşıyar. Digər qism isə haqqa həris olduğu lakin ona onu öyrədəcək bir kəsin tapılmadığına görə ola bilsin cahilliyinə görə bağışlansın." zikr etdikdən sonra demişdir: " Məqsəd budur ki, bu məqama nəzər salmaq lazımdır. Çünki bəzi təfsilatlar var ki Elm əhli bu vəsfə düşənləri Təkfir ediblər. Başqa ona oxşar təfsilatlarda var ki, bu vəsflə Təkfir etməyiblər. Bu ikisi arasındakı fərq odur ki, Təkfir etdikləri məsələrdə üzrlü hesab edilməsi üçün şübhə və Təvil etməsinə (ərəb dilində mümkün olmayan) əsas olmamamışdır. O məsələrdə isə təfsilata getmişlər buna bu məsəldə Təvillərin çox olması səbəb olmuşdur."
Şeyx Muhamməd ibn Useymin ؒ qiymətli Toplusunda cild 2 səh 63 demişdir: "İkinci növ. Yəni inkarın növlərindən: "Təvil inkarı. Bu o deməkdir ki, inkar etməsin yalnız Təvil etsin. Bu da iki növdür: "1- Ərəb dilində Təvil etməsi mümkün

Ümumən götürdükdə müəyyən şəxsi Təkfir etməyə mane olan maneələr arasında Təvil üzrü ən geniş maneə sayılır.

Ona görə də bəzi Elm əhli belə rəydədir ki: “Təvil edənə müxalif olduğu məsələdə dəlil çatdıqda rəyindən dönməzsə, məsələ garanlıq qaldığı üçün xətaya düşməsi, xəta edənin qəlbində şübhə sayəsində nəsə qalması edtimalı varsa, yaxud hər hannsı hadisə və ya müəyyən bir hadisə zamanı onu əhatə edən çətinliklər və buna oxşar səbəblər varsa, ona küfr hökmü verilməz.” Allah Təalaın bu ayəsi səbəbindən: “Etdiyiniz səhvlərə görə sizə günah yoxdur. Lakin qəsdən etdiyiniz işlərdən ötrü günah vardır.”[1]

- Şeyxülislam ibn Teymiyyə ﷺ demişdir: “Dedikdə sahibi Təkfir edilən bu sözlərə gəlincə, ola bilsin haqqı bilmək üçün vacib olan dəlillər bu şəxsə çatmamışdır. Ola bilsin çatmışdır lakin onun üçün sübuta yetməmişdir. Yaxud onu başa düşə bilməmişdir. Ola bilər ona şübhə ərz olmuşdur və Allah Təala onu buna görə üzürlü hesab edəcəkdir. Mömünlərdən kim olursa olsun haqq axtarmaq üçün ictihad edərsə (səy göstərəsə) və xəta edərsə Allah Təala onun xəatasını bağışlayar. Fərqi yoxdur istər nəzəri istərsə də elmi məsəslərdə olsun. Peyğəmbərin səhabələri və cumhur İslam imamları bu rəy üzərindədirlər.”[2]
- Səudiyyə Ərəbistanının keçmiş muftisi olan Şeyx Muhəmməd ibn İbrahim ﷺ Təkfir olunacaq şeylərin növlərini zikr edərkən demişdir: “Üçüncü qism: “Qaranıq məsələlər. Bu məsələrdə şəxs Təkfir edilməz. Hətta dəlillər ona çatsa belə. Fəri yoxdur istər bu əsaslarda, istərsə də bölmələrdə (qismlərdə) olsun.”[3]

Allahın izni ilə yaxında qeyd eiləcək Şeyxülislam ibn Teymiyyənin ﷺ bəzi almlərin əl-Cəhmiyədən olan bəzi müəyən şəxsləri Təkfir etməməsi məsələsindəki sözlərinə də baxılsın![4]

---

olan bir şeydə olsun! Bu küfr olmasını gərəkdirmir. 2 - Ərəb dilində Təvil etməsi mümkün olmayan bir şeydə olsun! Bu küfr olmasını gərəkdirir. Çünki əgər mükün (caiz) olmayan bir şeydə olarsa bu yalan saymaq hesab edilir. Məsələn desə ki: “Allahın həqiqi əli yoxdur. Yəni nə nemət, nə də qüvvət mənasında da deyildir. Bu kafirdir. Çünkü mütəq şəkildə inkar etmişdir. Həqiqətdə o yalan sayandır. Əgər Allah Təalanın bu: “Xeyr, Allahın əlləri açıqdır.” “əl-Maidə” surəsi 64 cü ayəsi haqda: “Bu ayədə əl sözünün mənası göylər və yerdir.” Desə o, kafirdir. Çünkü ərəb dilində bu məna caiz deyil. Həmçinin həqiqətən şəriətdə də bu belə deyildir. O, yalan sayan və inkar edəndir.” Bax: Cahillik maneəsi üçün zikr etdiyimiz mənbələrdə Elm əhinin sözlərinə və həmçinin “əş-Şifa” cild 2 səh 500, 529, “əl-Muğni” cild 12 səh 276, İbn Teymiyyənin ﷺ “Məcmu əl-Fətəva” sı cild 20 səh 263-268 və cild 5 səh 161,162, “İsar əl-Haqq” səh 376,377,393, İbn Teymiyyənin ﷺ “Təkfirdə mənhəci” risaləsi cild 1 səh 193-250, “Dəvabit ət-Təkfir ində əhlissünnə vəl Cəmaə, Təkfir əl-Mutəəvvil” səh 75-80, Nəvaqidil İman əl-Etiqadiyyə və Dəvabit ətTəkfir indəs Sələf” 2 ci cild səh 20-38.

[1]“əl-Əhzab” surəsi 5 ci ayə.

[2] “Məcmu əl-Fətəv”a cild 23 səh 364.

[3]Bax Şeyx Muhəmməd İbn İbrahimin ﷺ “Fitvalar toplusu” cild 1 səh 74.

[4] Bax “əl-Fisal”cild 3 səh 285, “Məcmu əl-Fətəva cild 7 səh 472 və cild 20 səh 263-268, İsar əl-Haqq səh 376-406, Fəth əl-Bari: İstitəbətul Murtəddin cild 12 səh 273, “əd-Dürər əs-Səniyyə cild 1 səh 235, 236, “Nəvaqidil İman əl-Etiqadiyyə” cild 1 səh 20-34, “Dəvabit ətTəkfir” səh 333, 334. Həmçinin cahilliyin üzr olması məsəlisində keçən mənbələrə də bax. Şeyxülislam ibn Teymiyyə ﷺ “əl-İstiğasə” kitabı cil 1 səh 282, 283 də səhabələrin ﷺ Qudamə ibn Məzunu ﷺ Allah

Bəzi Elm əhli bu maneə yəni Təvil maneəsi səbəbindən cənnətlə müşdələnmiş Raşidi xəlifə Əli ibn Əbu Talibə qarşı çıxan, onu Təkfir edən, onunla vuruşan, qanını halal görən, hətta onu öldürən və onlara müxalif olan hər bir kəsin qanını halal görən xəvarícləri, baxmayaraq ki, onlaraın etdikəri bəzi şeyləri edənlər Təkfir olunur, yalnız səhabələrin ﷺ onları Təkfir etmədiklərini zikr etmişlər.

- Şeyxülislam ibn Teymiyyə ﷺ demişdir: "Səhabələr Osmanı, Əlini Təkfir edən, müsəlmanların və onlara müxalif olanların qanını halal görən xəvarícləri Təkfir etməmişlər."[1]

Bu maneə yəni Təvil maneəsi səbəbindən bəzi alimlər Allahın sifətləri xüsusunda küfri etiqadlara malik Cəhmiyyədən olan bəzi müəyyən şəxsləri açıq aydın Təkfir etməmişlər.[2]

---

Təalanın bu ayəsini təvil edədrək: "İman gətirib yaxşı işlər görənlərə pis əməllərdən çəkinib iman gətirdikləri, saleh əməllər etdikləri, sonra pis əməllərdən çəkinib iman gətirdikləri, sonra yenə də pis əməllərdən çəkinib yaxşı işlər gördükləri təqdirdə daddıqları şeylərdən ötrü günah tutulmaz." ("əl-Məidə" surəsi 93 cü ayə) və onun kimiləri içkinin halal olduğunu etiqad edərək araq içdiklərində Təkfir etmədiklərini nəql etmişdir. Qeyd etmişdir ki, səhabələr ﷺ Qudamə ibn Məzunu ﷺ və onun əməlini edən kəsləri yəni başlanğıcdan əməli halal görənləri, ərz olunan şübhə səbəbindən onlara haqq bəyan olmamış Təkfir etməmişlər. Əgər inkarda israr etsəydilər Təkfir edərdilər. Bu xəbəri Əbdürrəzzaq (17076) rəvayət etmişdir. Həmçinin əl-Beyhəqqi Sünnənində səhih isnadla səh 315,316 da rəvayət etmişdir. Raviləri Səhih Buxari ﷺ və Müslimin ﷺ raviləridir. Həmçinin Əbdürrəzzaqın ﷺ rəvayəti onu gücləndirir. Eləcə də bax: "əl-Musannaf" (17075), "əl-İsabə" cild 3 səh 220, İbn Əbu Şeybənin ﷺ "əl-Musannaf" kitabı cild 9 səh 546, "Muşkil əl-Əsər" (4441), "əd-Dürər əl-Mansur" cild 3 səh 161,174, həmçinin bax: "Minhəc əs-Sünnə" cild 5 səh 89 və cild 6 səh 84, "Məcmu əl-Fətəva" cild 7 səh 619.

[1] Bax əl-Minhəc əs-Sünnə cild 5 səh 95, Məcmu əl-Fətəva cild 3 səh 282, 283 və cild 7 səh 217, əl-Muğni cild 12 səh 276, əd-Dürər əs-Səniyyə cild 10 səh 431 və cild 12 səh 272.

Şeyx Əbdürrahman əs-Sədi ﷺ "əl-İrşad" kitabında səh 207, 208 demişdir: "Əmir əl-Mömin Əli ibn Əbu Talibə ﷺ və onunla olan səhabə ﷺ və müsəlmanlara qarşı çıxan Hüruriyə xəvarícləri, Quran və Sünnədə günahsız, ehtiramı olunduğu sübüta yetməsinə baxmayaraq onları Təkfir edib, qanlarını halah gördülər. Onlara qarşı çıxıxdıqları üçün onlarala vuruşmağı müstəhəb gördülər. Lakin səhabələr ﷺ dində zəruri olan şeyləri halal gördüklərinə baxmayaraq onları İslam dairəsindən çıxarmadılar. Xəvariclərin qəlblərini bürüyən Təvil, Allah Təalanın və elçisinin ﷺ istəyinin bu olduğunu zənn etmələri və həmçinin Allah Təalanın: "Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma!"(əl-Bəqərə 286) Allah Təala demişdir: "Artıq etdim!" bu ayəsinə tabe olmaları səhabələrə onları Təkfir etməyə mane oldu. Bu Xəbəri və əməli məsələrdə xəta etmiş ümumən bütün möminlər üçün belədir. Bundan daha dəqiq onlardan yəni xəavariclərdən hədis rəvayət etmələridir. Onların düzgünlüyü bəyan olduqdan sonra onlardan dinlə bağlı hədislər götürülürdü. Baxmayaraq ki, məzhəbləri müsəlmanları Təkfir etməkdən başqa, mütavatir və sabit olmasına baxmayaraq böyük günah sahibləri üçün olan şəfaəti inkar edirdilər. Lakin səhabələr ﷺ onları Təkfir etməsələrdə, onların zəlalətdə olduqlarına, şəriətdən çıxdıqlarına və müsəlmanlara müxalif olduqlarına hökm vermişlər. Əksinə əqidələrinin, qılınclarının zərərinin çox olduğuna görə vuruşmağı halal və Allaha yaxınlaşmaq üçün ən əfzəl əməllərdən hesab etmişlər." Şeyx Əbdürrahman əs-Sədinin ﷺ sözü bitdi.

[2] Bu hökm Ğulətul (həddi aşan) Cəhmiyyələrə aid deyildir. "əd-Dürər əs-Səniyyə" cild 10 səh 374 də olduğu kimi Hafiz İbnül Qeyyim ﷺ demişdir: "Amma Ğulətul Cəhmiyyə, həddi aşan Rafizilər kimidir. Onların İslamda heç bir payı yoxdur. Ona görə də bəzi sələflər onları yetmiş iki firqədən çıxarmış və: "Onlar millətdən ayrıdılar." Demişlər. Bax "Mənhəc ibn Teymiyyə Fittəkfir" cild 1 səh 197, 199.

- Şeyxülislam ibn Teymiyyə ﷬ demişdir: "İmam Əhməd və başqa imamlardan bilinən budur ki,onlar Müşəbbihətul (Allahı məxluqa öxşadanlar) Cəhmiyyə və onlar kimi etiqad sahiblərini Təkfir ediblər. Lakin buna baxmayaraq İmam Əhməd ﷬ Cəhmiyyə əqidəsində olan müəyyən kəsləri Təkfir etməmişdir. Mən Cəhmiyyəyəm deyən hər hansı bir kəsi və ya Cəhmiyyənin bəzi bidətlərinə müvafiq olan kəsləri Təkfir etməmişdir. Əksinə insaları imtəhan edən onları özlərinin dediklərinə çağıran, onlara müvafiq olmayanlara şiddətli əzab verən Cəhmiyyə əqidəsində olanların arxasında namaz qılmışdır. Əhməd ﷬ və onun kimilər onları Təkfir etməmiş, onların imanlı və imam olmalarına etiqad etmiş, onlar üçün dua etmişlər. Onların arxasında namazı, onlarla həccə və döyüşlərə çıxmağı caiz görmüş, onlar kimi imamlara qarşı çıxmağı qadağan etmişlər." Şeyxülislam ibn Teymiyyənin ﷬ sözü müxtəsər olaraq bitdi.[1]

- Şeyxülislam ibn Teymiyyə ﷬ bir qədər əvvəl keçən Qudamənin ﷺ və öldükdən sonra övladlarına onun cəsədini yandırmalarını əmr edənin hekayəsini zikr etdikədn sonra demişdir: "Buna görə də Hüluli (Allah Təala məxuqatına yayılıb deyənlər) və Allahın ərşin üzərində olmasını inkar edən Cəhmiyəyə fitnəsi başladığı ərəfədə deyirdim ki; "Əgər sizin dediyinizə müvafiq olsam kafir olaram. Çünki bilirəm ki, sizin dediyiniz küfrdür. Siz isə mənə görə kafir deyilsininz. Çünki cahilsiniz."[2] Bu onların alimlərinə, qazilərinə, şeyxlərinə və əmirlərinə olan xitab idi. Cahilliklərinin əsli Əqli şübhə idi ki, salamat ağlın səhih dəililərə müvafiq olmasını bilməkdə ağıllarının naqisliyi səbəbindən onların başçıları bu şübhəyə düşmüşdülər."[3]

---

[1] Bax: "İman əl-Əvsat" səh 374, 375, "Məcmu əl-Fətəva" cild 7 səh 507, 508, həmçinin risalənin əvvəlində keçən Şeyxülislam İbn Teymiyyənin İmam Əhmədin və başqa sələflərin Cəhmiyyə əqidəsində olam müəyyən şəxslər haqda mövqeyinə bax.

[2] Bax: Şeyx Əbu Batinin ﷬ Şeyxülislam İbn Teymiyyənin ﷬ sözünün açıqlaması "əd-Dürər əs-Səniyyə" cild 10 səh 373.

[3] Bax "əl-İstiğasə" kitabı cild 1 səh 383, 384, Şeyxülislam İbn Teymiyyə ﷬ Məcmu əl-Fətəvada cild 5 səh 563 - də bəzi Cəhmiyyələrin iğtişaş və zəlalətini qeyd etdikdən sonra demişdir: "Lakin Onlar Peyğəmbərin ﷺ gətirdiyinin həqqiqətini bilmədilər. Ağıllarının onu dərk etməsində çaşqınlıq əmələ gəldi. Quran və Sünnədəki dəlilləri ağılın dərk etməsində naqislik yarandı. Baxmayaraq bu naqislik sahibinin sonuncu qüdrətinin bəhrəsidir, onu dəf etməyə o qadir deyildir. Bir insan lazımınca ictihad edərsə lakin aciz qalarsa bu acizliyi Allahın ona əzab verməməsi üçün üzrdür. Sələfərin və imamların rəyi budur. Kİm Allahdan bacardığı qədər qorxarsa və haqqın bəzisini bilməkdə aciz olarsa buna görə əzab görməz." Bax eyni mənbə cild 12 səh 485, 489.
Şeyx Əbdürrahman əs-Sədi ﷬ "əl-İrşad" kitabında səh 208, 209 – da Təvil üzründən danışarkən demişdir: "Həmçinin Mötəzillər və onlar kimiləri ilə imamaların onlara qarşı olan müamələləri məlumdur. Onların bidətlərinə şiddətlə inkar etmələrinə baxmayaraq onları İslam dairəsindən çıxarmamış və onlara kafir hökmü verməmişlər. Baxmayaq ki, onların bidətləri Quran, Sünnədən olan çox sayda dəlilləri yalan saymaqdan, Allahın siflərini inkar etməkdən, Quran, Sünnənin qoyduğu Allah Təalanın məxluqatından yüksəkdə olması kimi əzəmətli əsaları inkar, təhrif etməkdən və Əhli Sünnə imamlrına qarşı pis müamələ etməkdən ibarətdir lakin dedikləri sözün küfr, küfrü əhatə etməsinə baxmayaraq onları Təkfir etməmişlər. Bu da onların cahilliyi və Təvil etmələri səbəbindən olmuşdur." Şeyx Əbdürrahman əs-Sədinin ﷬ sözü bitdi. Onların dəlilərin zahiri mənasını rədd etmərini və zahirindən başqa mənaya yozmalrını yalan saymaq adlandırmışdır.

Ümumən müəyyən şəxsin Təkfiri məsələsi böyük məsələdir və müctəhidlərin buna baxışları müxtəlifdir. Alimlərin bu məsələnin bəzi cüziyatlarında söz və təfsilatları vardır. Onların bəzilərinə İkrah, Cahillik, Təvil haqda danışarkən işarə etdik.[1]

Ona görə də müsəlman olan kəs müəyyən şəxs və ya müəyyən bir camaat haqda hökm verərkən tələsməməlidir. Təkfir etmək üçün bütün şərtlərin yerinə yetdiyini və bütün maneələrin aradan qarxdığını dəqiqləşdirməmiş hökm verməməmlidir.

Müəyyən şəxsi Təkfir etmək üçün iki şeyə baxmaq lazımdır.

1- Bu mükəlləf şəxsin dediyi söz yaxud etdiyi əməl küfrün və ya böyük şirkin növlərindən sayılır ya yox?

2- Bu mükəlləf şəxsə hökm vermək üçün düzgün hökmü bilmək. Onun haqqında Təkfir hökmü vermək üçün bütün şərtlər yerinə yetib və bütün maneələr aradan qalxıb ya yox?[2]

Bu da müəyyən şəxsi Təkfir etmək məsələsində, müəyyən səxsə və ya bir camaata hökm vermək haqqını yalnız Elm əhlinə verir.

Müsəlmana haqsız yerə küfr hökmü vermək böyük günahdır. Çünki onun İslam dairəsindən çıxdığına hökm verirsən. Bu onun qanının, malının halal olduğu deməkdir. Bu halda ölələrsə əbədi olaraq cəhənnəm odunda olması deməkdir. Ona görə də müsəlma kafir olmadığı halda ona küfr hökmü verən kəs üçün şiddətli əzab vədi varid olmuşdur. Əbu Zərdən ﵁ sabit olan hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir kimsə başqa bir insanı fasiqlikdə və ya küfüdə ittiham edərsə o belə olmadığı halda o, söz onun ozunə qayıdar." Buxari ﵀ və Müslim ﵀ ittifaq etmişlər.[3]

---

[1] Bax İkrah, Cahillik, Təvil haqda keçən mənbələrə.

[2] Yaxında Allahın izini ilə iki Şeyxin: "Şeyx Abdullah ibn Əbdürrəhman Əbu Batin ﵀ və Şeyx Muhəmməd ibn Useyminin ﵀" bu məsəldə sözləri gələcəkdir.

[3] Buxari ﵀ (6045), Muslim ﵀ (61) çoxlu sayda qüvvətləndirən rəvayətləri vardır. Bax Muşkil əl-Əsər (855-865) və başqa mənbələr. İbn əl-Vəzir "İsər əl-Haqq" kitabında səh 385 də bu hədisin mütavatir (rəvayətlərin çox olması) olması və onu gücləndirən rəvayətlər haqda danışdıqdan sonra demişdir: "Bünlar bütünlüklə mömini Tovtid və Nübüvvətə (peyğəmbərliyə) gətirdiyi şəhadət ola ola Təkfir edib İslam dairəsindən çıxarmağın necə şiddətli olduğuna şahidlik edən dəlillərdir. Xüsusəndə əgər İslamın rükunlarını yerinə yetirir, böyük günahlardan çəkinirsə və düzgün danışdığının əlamətləri zahirdirsə. Bidət olan bir şeydə xəta etməsi səbəbi ilə onu Təkfir edən bəlkə özü də bu kimi və ya ona yaxın işlərdə salmat qalmayıb. Çünki günahsızlıq qaldırılmışdır. İnsanın öz nəfsi barəsində gözəl zənndə olması, şəriət və ağıl nöqteyi nəzərindən salamat olamsını gərəkdirmir. Əksinə bidət əhli əksər əhvalı öz nəfsləri ilə təəccüblənmək (xoşlanmaq), bidətlərini gözəl saymaqdır.
İbn Dəqiq əl-İd ﵀ "İhkəm əl-Əhkəm" kitabının əl-Lian (lənətləşmə) adlı axırıcı fəslində cid 4 səh 76 – da yuxarıda keçən Əbu Zərin ﵁ hədisini şərh edərkən demişdir: "Bunda müsəlmanlardan olan bir kəsi, dediyi kimi olmadığı halda Təkfir edən üçün böyük bir əzab vədi vardır. Buda bidət əhlindən və özünü əhli Sünnəyə nisbət edən əksər insanların düşdüyü

- Yəmənin alilmi Muhammməd ibn Əli əş-Şovkani ﷾ belə demisdir: "Allaha və axirət gününə iman gətirən insanın hər hansı musəlmana onun İslam dinindən cıxması və küfrə batması ilə bağlı, əlində günəşdən daha aydın bir dəlil olmadan hokm verməsi haramdır. Səhabələrdən ﷺ olan camaatın vasitəs ilə rəvayət edilən səhih hədislərdə Peyğəmbərin ﷺ bu ifadələri oz təsdiqini tapmısdır: "Kim bir qardaşına "Ey kafir!" deyərsə, ikisindən biri bu sifətlə sifətlənər. Səhih Buxaridə belədir. Buxari ﷾ və Müslimin ﷾ səhihində və başqa mənbələrdə digər bir ləfzdə isə bu: "Kim ki, bir nəfəri "kafir" deyə cağırsa və yaxud: "belə olmadığı halda (ona) "Allahın dusməni" deyərsə, o söz onun ozunə qayıdar." yəni geri ona dönər. Səhih Buxarinin digər bir ləfzində: "artıq iksindən biri kafir olar." Bu hədislər və eyni mənada varid olad hədislər Təkfir etməyə tələsməmək haqda ən əzəmətli çəkindirən, ən böyük moizə edənir."[1]

- İbn Əbil İzz əl-Hənəfi ﷾ demişdir: "Bil ki, Allah sənə və bizə rəhm etsin, Təkfir edib etməmək məsələsi fitnə və (insalnları) imtahanın çox böyük olduğu bir bəhsdir. Bu məsəldə çox ayrılığa düşülmüş, fikrilər və rəylər qarışmışdır... Müəyyən şəxsin Təkfir edilməsinə gəlincə, siz o şəxsin ona əzab vəd edildiyinə və kafir olduğuna şahidlik edərsinizmi? deyə soruşsanız? Belə bir şəxs haqqında ancaq şahidlik edilə biləcək xüsusi halda şahidlik edə bilərik. Çünki müəyyən bir şəxsi Allahın bağışlamayıb ona mərhəmət etməyəcəyinə, əksinə onu cəhənnəmə əbədi olaraq salacağına şahidlik etmək ən böyük zülmdür (həddi aşmaqdır). Çünki bu hökm kafir olaraq ölənin, ölümdən sonrakı hökmüdür. Buna görə də Əbu Davud Sünən əsərində, Ədəb kitabı, zülmü qadağan etmək haqqında fəslidə Əbu Hureyrədən ﷺ bu hədisi nəql etmişdir: "Mən Peyğəmbəri ﷺ belə deyərkən eşitdim: "İsrail oğulları arasında qardaş olmuş iki adam vardı. Onlardan biri günah edərdi, digəri isə ibadət etməkdə səy göstərərdi. Səy göstəməklə ibadət edən digərini davamlı günah etdiyini görər, ona: "Bu işdən əl çək!" deyərdi. Yenə bir gün onun günah etdiyini gördü və ona: "Bu işdən əl çək!" dedi. O: "Məni Rəbbimlə baş-başa burax! Sən mənim üzərimə gözətçi göndərilmisən?" deyə cavab verdikdə, ibadət edən ona: "Allaha and olsun ki, Allah səni bağışlamayacaq və ya səni cənnətə daxil etməyəcək." dedi. Onlar öldülər və hər ikisi aləmlərin Rəbbinin hüzurunda bir araya gəldilər. Allah Təala səylə ibadət edən kəsə: "Sən Məni (nə edəcəyimi) bilirdin, yoxsa sən Mənim əlimdə olana qadir idin? Deyə buyurdu. Günah edənə isə: "Get rəhmətim ilə cənnətə gir!" deyə buyurdu. İbadət edən haqqında isə: "Bunu cəhənnəmə aparın!" deyə buyurdu. Əbu Hureyrə ﷺ belə dedi: "Nəfsim əlində olana and olsun ki, o, dünyasını da axirətini də məhv edən bir söz söyləmişdi."[2] Bu həsən (yaxşı) hədisdir... Bidət əhlinin qüsurlarından biri də bir-

---

ağır bir məsələdir. O vaxt ki, etiqadi məsələrdə ixtilafa düşdülər müxaliflərinə şiddətlə yanaşaraq onlara küfr hökmü verdilər."

[1] Bax "əs-Seyl əl-Carrar" fəsl: "Etiqad, fel, libas və ya küfr sözlə İslam dairəsindən çıxmaq." cild 4 səh 578.

[2] İmam Əhməd ﷾ (8292), Əbu davud ﷾ (4901) və İbn Hibban ﷾ (5712) yaxşı isnadla rəvayət etmişlər. Müslimin ﷾ Cundubdan ﷺ Mərfu olaraq rəvayət etdiyi (2661) etdiyi hədis bu hədisi qüvvətləndirir. Hədis belədir: "Allaha and olsun ki, Allah filankəsi bağışalmayacaq. Allah Təala isə belə buyurdu: "Mənim filankəsi bağışlamayağımı deyərək adımdan danışan kimdir? Mən Artıq filankəsi bağışladım! Onun isə əməlini puç etdim!" və ya dediyi kimi.

birlərini Təkfir etmələridir. Elm əhlinin təriflənən xüsusiyyətlərindən biri də, onların səhv etdiklərini deyərkən Təkfir etmirdilər." İbn Əbil İzzin ﷺ sözü müsxtəsər olaraq bitdi.[1]

- İbn əl-Vəzir ﷺ demişdir: "Xəvariclər ən şiddətli cəzanı aldılar. Allah Təalaya qarşı asiliyi, asiləri Təkfir etməklə Allahı əzəmətləşdirmələri ilə yanaşı asi müsəlmanları Təkfir etdikləri üçün ən pis bir şəkildə məzəmmət olunmuşlar. Təkfir edən onların günahına düşməyəcəyindən əmin olmasın. Bu da din üçün böyük təhlükədir. Hər bir həlim əsilzadə bundan çox ehtiyatlı olmalıdır."[2]
- Şeyx Əbdüllətif ibn Əbdürrəhman ibn Həsən ibn Məhəmməd ibn Əbdülvahhab ﷺ demişdir: "Zahiri islam olan şəxsi şəriətdən bir əsas, açıq aydın kifayətləndirici bir dəlil olmadan Təkfir etməyə cürət etmək Əhli Sünnə vəl Camaənin Elm əhli olan imamlara müxalif olaqdır. Bu söz və əmmlərində Allah qorxusu, təqvası olmayan zəlalət və bidət əhlinin yoludur... Şeyxülislam yəni İbn Teymiyyə ﷺ demişdir: "Bu məsələdə danışan kəs ümumi əsalara malik olmalıdı ki, cüziyyətlərdə ona qayıda, elm və adilliklə danışa bilsin. Həm cüziyyətlərin necə baş verdiyini bilsin. Əks halda cüziyyətlərdə yalan və cahillik, ümmi əsaslarda isə zülm və cahillikdə qalacaq." Sonra Təvil edən ilə bilərəkdən edən arasındakı fərq, hüccət qalxmış, şübhəsi aradan qalxmış və xəta etmiş, məslə ona qaranlıq, hökm isə gizli qalan kəs haqda uzun uzadı danışdı.[3]
- Şeyximiz Muhammad ibn Useymin ﷺ demişdir: "Əsl budur ki, özünü İslama nisbət edən kəs, şəriət dəlilinə əsaaslan bir dəlil onun İslamdan çıxdığını sübut etməyincə islamda qalır. Onun təkfirində səhlənkarığa yol vermək olamaz. Çünki bunda iki qadağa vardır. Bunun biri: "Hökm verərkən Allahın adından yalan iftira etmək. Digəri isə hökm olunana verdikləri bu vəsf. Birinci aydındır. Çünki Allahın kafir hökmü vermədiyi kəsə bu hökmü vermişdir. Bu Allahın halal etdiyini haram edən kimidir. Çünki kafir hökmü verib və ya verməmək, bir şeyə haram hökmü verib, verməmək kimi yalnız Allaha aididr. Amma ikinci isə Çünki müsəlmanı əks bir şeylə vəsf etmişdir. Baxmayaraq ki, bundan uzaqdı, ona: "Kafir " olduğunu demişdir. Bu vəsfin onun özünə qayıtması qaçılmazdır. Necə ki, Səhih Müslimdə ﷺ Abdullah ibn Ömərin ﷺ rəvayətindən sabit olan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim bir qardaşını Təkfir edərsə, ikisindən biri bu sifətlə sifətlənər. Kim bir kişiyə "Ey kafir!" deyərsə, ikisindən biri bu sifətlə sifətlənər." Digər rəvayətdə: "Kim ki, bir nəfəri "kafir" deyə cağırsa və yaxud: "belə olmadığı halda (ona) "Allahın dusməni" deyərsə, o söz onun ozunə qayıdar." İbn Ömərin ﷺ hədisində ki: "əgər dediyi kimidirsə" və həmçinin Əbu Zərin ﷺ hədisindəki: "Əgər elə deyilsə" sözünün mənası "Allahın hökmündəki kimi" deməkdir. Bu da ikinci qadağadır. Yəni qardaşı günahsızdırsa bu vəsf onun özünə qayıtmasıdır. Bu qadağa əzəmətlidir. Ona görə ki, ola bilsin bu vəsf onun özünə qayıtsın. Çünki müsəlmana küfr hökmü verməkdə tələsənlərin

---

[1] Təhaviyyə əqidsinin şərhi səh 432, 436, 439, "Bidət əhlinin qüsurlarından" sonuna qədər cümləsinin isə "Minhəc əs-Sünnə" cild 5 səh 251 də Şeyxülislam İbn Teymiyyənin ﷺ sözündən nəql etmişdir.

[2] "İsar əl-Haqq aləl Xalq" səh 403.

[3]Bax əd-Dürər əs-Səniyyə cild 10 səh 423, 424, 425, Minhəc əs-Sünnə cild 5 səh 89-125

əksəriyyəti öz əməlləri ilə fərəhlənir, başqalarını isə aşağı hesab edir. Əməlinə heyran olmaqla, əməlinin batil olması ilə, Allahın Cəhənnəmdə əzabını vacib edəcək təkəbbürlüyü cəm edir. İmam Əhmədin ﵀ və Əbu Davudun ﵀ Əbu Hurüyrədən ﵁ rəvayət etdiyi hədisdə varid olduğu kimi: "Peyğəmbər ﷺ buyurdu: "Allah Təala buyurdu: "Təkkəbürlük Ridəm[1], Əzəmətim isə İzarımdır.[2] Kim bunlardan birini məndan almaq istəsə onu oda salaram.[3] Təkfir hökmü verməzdən əvvəl iki şeyi nəzərə almaq vacibdir. Birinci : "Allahın adından yalan iftira edilməsin deyə, Quran və Sünnənin bu əməlin küfr olmasına dəlalət etməsi." İkinci: "Bu hökmün müəyyən bir şəxsə tətbiqi üçün şərtlərin yerinə yetməsi və maneələrin aradan qalxması." İbn Useymin ﵀ sözü bitdi.[4]

Ona görədə nicat tapaq istəyən hər bir müsəlman başqa br müsəlmana küfr və ya şirk hökmü çıxarmaqda tələsməməlidir.
Həmçinin avam insalrara və Elm tələbələrinə müəyyən şəxsə və ya camaata hökm vermək haramdır. Yaxud Elm əhlinə qayıdmamış məyyən bir partiyya (dəstəyə) özünü nisbət edən müəyyən müsəlman olan insanları Təkfir edə bilməz.
Həmçinin hərbir müəslman elmi az olduğu halda Təkfir məsələrindən ona daşımaq haram olan kəslərin məclislərindən çəkinməsi vacibdir. Çünki onların bu məsəslərdən daşımağı Allahın ayələrini ələ salmaqdır. Allah Təala buyurur: " Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan (bu qadağan əmrini) sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma."[5]

- Şeyxülislam ibn Teymiyyə ﵀ demişdir: "Cahillərin İslam alimlərini Təkfir etməyə ayaq açmaları ən böyük münkər işlərdəndir. Bunun əsası müsəlmanların imamlarını Təkfir edən Xəvaric və Rafizilərdən gəlir. Çünki onlar bu imamların dində xəta etdiklərini etiqad edirlər. Əhli Sünnə ittifaq etmişdir ki, müsəlman alimlərini sadəcə sırf xəta etdiyi üçün Təkfir etmək olmaz. Əksinə hər kəsin sözü qəbul edilir və rədd olunur. Yalnız Peyğəmbər ﷺ istisnadır. Bir kəsin sözü xəta etdiyi üçün tərk olunursa bu onu Təkfir və ya təfsiq (fasiq saymaq) demək deyildir. Əksinə günah da qazanmır. Allah Təala möminlrin duası haqada buyurur: "Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma!"[6] Səhih Buxaridə rəvayət olan hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: "Allah Təala buyurdu: "Artıq etdim!"[7]

---

[1] Ridə çiyinlərin üzərinə atılan paltar əvəzi istifadə edilən parça.
[2] İzar isə qurşaqdan aşağı bədənə bağlanan (bürünən)parça.
[3] İmam Əhməd ﷺ (7382), Əbu Davud ﷺ (4090) səhih isnadla rəvayət etmişlər. İmam Müslim ﵀ isə (2620) Əbu Səid ﵁ və Əbu Hureyrədən ﵁ belərəvayət etmişdir: "Peyğəmbər ﷺ buyurdu: "İzzətim İzarım, Təkkəbürlük isə Ridəmdır. Kim bunları məndan almaq istəsə ona əzab verərəm."
[4] "Məcmu əl-Fətəva- ibn Useymin ﵀ "(Fəhd əs-Suleymanın cəm etdiyi cild 2 səh 133, 134).
[5] "əl-Ənam" surəsi 68 ci ayə. Bax: əs-Sədi ﵀, əş-Şovkani ﵀, əl-Qurtubinin ﵀ bu ayənin təfsiri.
[6] "əl-Bəqərə" surəsi 286 cı ayə.
[7] "Məcmu əl-Fətəva" cild 35 səh 100.

- Şeyx Əbdüllətif ibn Əbdürrəhman ibn Həsən ibn Məhəmməd ibn Əbdülvahhab ﷺ Təkfirdə tələsən bəzi kəslərə yazdığı məktubunda, Təkfirdə bunların etdiyi kimi tələsn iki kişə inkar etdiyini zikr edəndən sonra demişdir: "Bu iki kişə Şeyx Məhəmməd ibn Əbdülvahhabın ﷺ bu əqidədən və məzhəbdən uzaq olduğunu çatdırıb dedim: "Şeyx, yalnız alimlərin yekdilliklə (hansısa əməlin insanı islamdan çıxaran küfr olması haqqında) razılaşdıqları, məsələn, hüccət çatdıqdan və bu dəlillər tam dərk olunduqdan sonra böyük şirk etmək, Allahın ayələrinə, peyğəmbərlərinə və sair küfr etmək kimi əməllərə görə kiməsə kafir deyir..." Sonra ﷺ bu iki kişinin bəzi rəhbərləri və alimləri Təkfir etmələri haqda halını bəyan etdi. Sonra Təkfirdə tələsənlərə xitab edərək belə dedi: "Sizin haqqınızda bizə, buna oxşar xəbərlər çatıb. Sizdə bu fəslin məsəslərinə girişmisiniz (lağlağı edirsiniz). Çöldə yaşan yad ərəblərin: "Allahdan qeyrisin hökmü ilə hökm vermək", Allaha şərik qoşan zəlalət əhlinin: "Dost və düşmənçilik", "Sülh bağlamaq və yazışmaq", "Malların sərf olunması", "Hədiyyələr " kimi və ya buna oxşar danışdığı elə məsələrə girşmisinz ki, bu haqda yalnız ağıl sahibi, Allahın başa düşməklə ruziləndirdiyi, hikmət və batili haqqdan ayıra bilən alimlər danışır. Bu haqda söz dediklərimizi və ümumi əsasları bilməyə dayanır. Bunları, təfsilatlarını, bilməyən, üz çevrən kəsə bu və başqa fəsillər haqda danışmaq caiz deyildir. Çünki ümumi, mütləq, sözün harda deyilişi, təfsilatı haqda bilməmək, xəta və qarışıqlığa səbəb olur. Allah Təalanın dinini başa düşməmək zehinləri qarışdırır və onunla Quran və Sünnəni başa düşmək arasında maneə qoyur. İbnül Qeyyim ﷺ "Kəfiyə" adlı əsərində demişdir: "

  Təfsilatı və bəyanı götür! Çünki bəyansız Mütləq və Ümum.
  Fəsad edib vücudları, qatışdırb zehinləri və rəyləri hər zaman."
  Şeyx Əbdüllətifin ﷺ sözü bitdi."[1]

- Şeyx Abdullah ibn Əbdürrəhman Əbu Batin ﷺ demişdir: "Bir sözlə nəfsinə nəsihət edən kəsə Allahdan elm və açıq aydın dəlili olmadan bu məslə haqda danışmamağı vacibdir. Bir insan sadəcə başa düşdüyü, ağlının bunu yaxşı hesab etməsi səbəbi ilə kimisə İslam dairəsindən çıxarmaqdan çəkinməlidir... Həmçinin əgər alimlər bir şeyin küfr olmasında ixtilaf ediblərsə və məslədə Məsumdan Peyğəmbərdən ﷺ açıq aydın dəlil yoxdursa, dinə görə ehtiyat edib dayanmaq bu məsləyə girişməmək lazımdır. Şeytan əksər insanları bu məsəəd azdırıb. Bir qisim insanlar Quran, Sünnənin və İcmanın bir şəxsin küfrünə dəlalət etdiyi halda onu İslam dairəsində saxlamaqla naqisliyə yol verib. Digər qism isə həddi aşaraq Quran, Sünnənin və İcmanın bir şəxsin müsəlman olduğuna hökm verdiyi halda onu İslam dairəsindən çıxarıblar. Təəcüb ediləsi odur ki, onlardan birindən Təharət, alış-veriş və ya buna oxşar məsələr haqqında soruşsan, sadəcə başa düşdüyü, ağlı bunu yaxşı hesab etdi deyə fitva verməz. Əksinə alimlərin sözlərini axtarar, onların dediyi kimi fitva ferər. Bəs elə isə bu əzəmətli bir işdə, hansı ki, dinin ən əzəmətli və ən təhlükəli məsələsində necə sadəcə başa düşməsinə,

[1] "əd-Dürər əs-Səniyyə" cild 1 səh 467-469.

ağlının bunu yaxşı hesab etməsinə etmiad edə bilir?! Ah İslam üçün müsbət bu iki tayfanın əlindən. Fitnə o iki bəladan."[1]

- Şeyx Süleyman ibn Suhman - Allah onu müvəffəq etsin - Təkfirlə bağlı bəzi məsəslər haqda sualı cavablandırarkən demişdir: "Allaha həmd olsun və bu bizə kifayətdir. Allahın seçilmiş bəndələrinə salam olsun. Və sonra : "Qardaşın dediyi çox insanların Quran və Sünnədən açıq aydın bir dəlil, bəyan mükəmməl bilik olmadan girişərək fitnəyə düşdüyü məsələləri nəzədən keçirdim. Bu məsəldə əksər danışanlar avam camaatdan olan bəzi dindarlardır ki, onlar əhkamları dərk etmir, tutduqları yolun sonun zülümət qaranlıq həlak edici olduğunu bilmirlər. Onalrın İslam imamlarının (alimlərinin) bu haqada açıqladıqları və qərar verdikləri məsələlərdən xəbərləri yoxdur. Belə məsələlərdə ancaq ən elmli, ən yaxşı bilən alimlər danışar. Bu məsələləri alimlər, Elm əhli bəyan edib. Bizə onların möhkəm mənhəci, yolu ilə getmək, öyrədib başa saldıqda bəyan etdikləri ilə kifayətlənmək bəs edər. Allahın adından elimsiz danışmaqdan Allaha sığınırıq. Bu işarə etdiyim məsələlərdə yalnız ağıl sahibi, Allahın başa düşməklə ruziləndirdiyi, hikmət və batili haqqdan ayıra bilən alimlər danışır."[2]
- Səudiyyə Ərəbistanı Fitvalar və Elmi Tədqiqatlar üzrə Daimi Heyəti, Şeyximiz Əbdüləziz ibn Abdullah ibn Bazın ﵀ başçılığı ilə hicri 1419/4/2 ci ildə keçirilən qırx doqquzuncu dövrəsinin bəyanın da belə deyilir: "Təkfir Şəriət hökmüdür Allah və Elçisinə ﷺ aiddir. Haram, halal və vacibin hökmü Allah və Elçisinə ﷺ aid olduğu kimi, eləcə də Təkfir Allah və Elçisinə ﷺ aiddir. Hər hansı bir əməlin və ya sözün küfr ilə vəsf olması, onun İslam dairəsindən çıxaran böyük küfr olması demək deyildir. Təkfir hökmü Allah və Elçisinə ﷺ aid olduğu üçün, yalnız Quran və Sünnənin küfrdə oluğuna açıq aydın dəlalət etdiyi kəsi Təkfir edirik. Bu məsəldə sadəcə şübhə və ya zənn kifayət deyildir. Çünki nəticə olaraq bunun arxasında təhlükəli əhkamlar var. Cəzalar şübhələr səbəbi ilə aradan qalxır. Baxmayaraq ki, cəzaların sonrakı nəticəsi, Təkfirin sonrakı nəticəsindən azdır. Ona görə də Təkfirin şübhələr səbəbi ilə aradan qalxması daha layiqlidir. Ona görə də Peyğəmbər ﷺ kafir olmayan şəxsi Təkfir etməkdən çəkindirərək buyurub: "Kim bir qardaşına "Ey kafir!" deyərsə, ikisindən biri bu sifətlə sifətlənər. Dediyi kimi deyilsə bu vəsf onun özü qayıdar." Ola bilsin ki, Quran və Sünnə bir felin, sözün və ya etiqadın küf olması varid olsun. Kafir olasına mane olan maneələrə görə bu vəsfə düşən kafir olmaz. Bu hökm başqa əhkamlar kimi səbələrinin və şərtlərinin mövcud olamsı, maneələrin aradan qalxması ilə tamamlanır. Məsələn mirasda olduğu kimi. Ola bilsin ki, maneə səbəbindən varis sayılmasın. Başqa dinə mənsub ola bilər. Küfr də belədir. Mömin küfr etməyə məcbur edilə bilər lakin bunula kafir olamz. Müsəlman çox sevindiyindən küfr və ya ona oxşar söz deyə bilər. Qəsd etmədiyi üçün kafir olmaz. Necə ki: "Allahım sən mənim qulum, mən sənin Rəbbinəm!" deyən kəsin hekayəsində olduğu kimi. Çox sevindiyi üçün xəta etdi. Təkfirdə tələsməyin arxasınada, qanı, malı halal, mirası qadağan, nikahı batil edən və İslamdan çıxdıqdan sonra olacaq başqa təhlükəli məsələr meydana çıxır. Elə isə möminə ən zəif şübhə ilə buna cürət etməsi necə icazəli ola bilər?!

[1] "əd-Dürər əs-Səniyyə" cild 10 səh 374, 375.
[2] "əd-Dürər əs-Səniyyə" cild 1 səh 467-469.

Bu (məsələ) əmr (rəhbərlər) sahibləri haqda olarsa daha da şiddətli olar. Bu məsələnin arxasında rəhbərlrə qarşı üsyan, onların üzərinə silah çəkmək, özbaşnalıq, qan tökmək və ölkənin və əhalinin fəsad olamsı ilə nəticələn hadisələr durur. Ona görə də Peyğəmbər ﷺ onlara qarşı çıxmağı qadağan edərək buyurub: "Açıq ayıdn küfr görsəniz və sizdə Allahdan açaıq aydın dəlil varsa bu halada istisnadır." "görsəniz" sözündən çıxan məna budur ki, mücərrəd zənn  və şayə kifayət deyil. "küfr" sözündən çıxan məna budur ki, zülm, içki içmək, qumar oynamaq , harama yiyələnmək kimi fasiq əmmələr böyük olsa belə kifayət deyil. "Açıq ayıdn" sözündən çıxan məna budur ki,  zahir, açıq aydın olmayan küfr kifayət deyildir. "Allahdan açaıq aydın dəlil varsa" sözündən çıxan məna budur ki, açıq aydın dəlil olmalıdır. Səhih sübut olunmuş, açıq aydın dəlalət edən olmalıdır. Zəif isnadlı, açıq aydın dəlaət etməyən olmamalıdır. "Allahdan "sözündən çıxan məna budur ki, hər hansı bir alim çatdığı dərəcəsinə baxmayaraq  Allahın kitabından, Peyğəmbərin ﷺ sünnəsindən açıq aydın səhih dəlil yoxdusa onun sözündə heç bir ibrət yoxdur (sözü qəbul edilməz). Bu qeyidlər bu işin təhlükəli olduğuna dəlalət edir. Sözün qısası Təkfirdə tələsmək böyük təhlükədir. Allah Təalanın bu kəlamına görə: "De: "Rəbbim yalnız aşkar və gizli alçaq işləri, hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur."[1] Bu ölkənin (Allah Təala onu və bütün müsəlman ölkələrini qorusun) Fitvalar və Elmi Tədqiqatlar üzrə Daimi Heyətidən nəql etmək istədiyim burda bitdi."[2]

- Bu Risalənin sonunda Şeyx Doktor Əbdürrahman Mahmudun (Allah onu müvəffəq etsin) sözünü nəql etmək istədim. O, bu dediklərini, "Allahdan qeyrisinin hökmü ilə hökm vermək" adlı risaləsinin axırıncı fəslində zikr etmişdir. Bu risalədə bu məsələnin əksər əhkamlarını qısa şəkildə açıqlamış və Əhli Sünnənin bu məsəldə həddini aşan və naqisliyə yol verənlər arasında orta mövqedə olduğunu zikr edək demişdir: "Bir felə və ya işə ümumən küfr hökmü verməklə onu müyyən şəxsə tətbiq etmək arasında fərq var. Bu məsəldə iki dəstə xəta edib

  Birinci dəstə müəyyən şəxsin heç Təkfir edilmədiyi deyir. Qeyd etdiyimiz kimi Təkfir etmək üçün şərtlərdən hansınınsa yerinə yetmsi və ya maneələrin hansınınsa aradan qalxmaması səbəbi ilə bunu müəyyən şəxsə tətbiq etmıyin çətin olduğunu iddia edərək riddə qapsını bağlayıb. Necə ki, Murciələr deyirlər ki: "Ancaq qəlbi ilə yalan saysa kaifr olur."  Bunun mənası isə odur ki, İslamdan çıxaran nə olursa olsun bu əmələ və ya sözə görə heç bir müəyyən şəxsə küfr hökmü verə bilmərik. Çünki qəlbində olan təsdiq səbəbi ilə mömin ola bilər. Digər dəstə isə deyir ki: "Bir əmələ ümumən küfr hökmü verilibsə, bu feli edənlərin hamısı bu hökmə daxildir. Beləcə müəyyən şəxsləri hər birinin halına, şərtlərin yerinə yetib, maneələrin aradan qalxmasına baxmadan Təkfir edirlər.
  Amma Əhli Sünnə: "Müyyən şəxs heç vaxt kafir olmur" demir. Həmçinin ola biləcək maneələr baxmadan Təkfir ediləcək bir feli edəni Təkfir etmirlər. Sələflərin əmmələrinə nəzər salsaq

[1] "əl-Əraf surəsi" 33 cü ayə.
[2] "İslami bəhslər" jurnalı  say  №56 səh 357-359.

görərik ki, onlar çox vaxt bəzi əmələrə, bidətlərə, sözlərə və buna öxşar şeylərə mütləq şəkildə Təkfir hökmü veriblər. Lakin müəyyən şəxsə bunu tətbiq etməyə gəldikdə bu məsələyə daha şiddətlə (daha mürəkkəb) yanşıblar. Çünki bunu edən ola bilsin cahil və ya ərəb dilində izn verilən Təvili edən, yaxud İslamı yeni qəbul edən və bunun kimi Təkfir hökmü verməyə maneə sayılan işləri edən şəxs olsun...

İmam Əhməd ﷬ və başqaları, mütləq şəkildə, Cəhmiyyəliyin, Allahın sifətlərini inkar etməyin, Quranın məxluq olduğunu deməyin, Allahı görmək və Qədəri inkar etməyin küfr olduğunu demişlər. Lakin onların Bu da şərtləri yerinə yetmiş və maneələri ardan qalxmış az qism müəyyən şəxsləri Təkfir etdikləri sabit olmuşdur. Sonra onlara İslamdan çıxdıqdan sonra tətbiq edilən hökm qətl və sair əhkamlar tətbiq edilmişdir...

Qeyd etdiklərimizdən və biz "Allahdan qeyrisinin hökmü ilə hökm vermək" məsələsini ərz edərkən deyə bilərik ki, bu araşdırma İslam hökmü və alimlərin bu məslədə sözünü bəyan etmək üçündür. Bu nəzəri araşdırma şəriət hökmünü dəlillər və Elm əhlinin bu haqda sözünün əsasında bəyan edir. Bu da gerçək (real) vəziyyətin aydın bir şkildə araşdırılmasını, sonra Təkfir emək üçün şərtlər və maneələr nəzarə alınaraq tətbiq edilməsini labüd edir." Şeyx Əbdürrahman Mahmudun (Allah onu müvəffəq etsin) sözü bitdi.[1]

Allahdan bu risani yazar və bütün müsəlmanlar üçün faydalı etməsini diləyirəm. Əmmələrimizi xalis onu üçün və Muhəmməd ibn Abdullahın ﷺ Sünnəsinə müvafiq etməsini istəyirəm. Allahdan bizə haqqı haqq olaraq göstərib, ona tabe olanlardan etmək ilə, batili də batil olarq göstəribondan çəkinənlərdən etmək ilə ruziləndirməsini diləyirəm. Allahın salamı və salavatı Peyğəmbərimiz Muhəmmədin ﷺ, ailəsinin, səhbələrinin üzərinə olsin!

* * *

---

[1] Bax: "Allahdan qeyrisinin hökmü ilə hökm vermək" risaləsi səh 372, 373.

Şeyx doktor Əbdüləziz Əbdüllətif - Allah onu müvəffəq etsin - "Nəvaqidil İman əl-Qovliyyə vəl əməliyyə" səh 52, 54 də demişdir: "Əhli Sünnə Mütləq Təkfir ilə müəyyən şəxsin Təkfirini ayırır. Birincidə küfrə qarışmış kəsi mütləq şəkildə (bunu deyən və ya bunu eədn kafirdir deyərək) Təkfir edirlər. Lakin müəyyən şəxsə yəni bu sözü və ya feli edən gəldikdə isə şərtlər cəm edilib, maneələr aradan qalxmamış mütləq şəkildə Təkfir edilmir. Bu zaman ona hüccətin qalxması ilə küfr hökmü verilir. Elə bir hüccət ki, onu tərk edən kafir olar. Mütləq Təkfir ilə müəyyən şəxsin Təkfiri arasındakı fərq bizə aydın oldusa, bilməliyik ki, insanlardan iki dəstə bu məsələdə xəta edib. Bir dəstə insan bu məsəldə həddi aşıb. Müəyyən şəxsi şərtlər və maneələrə baxmadan mütləq olaraq Təkfir edildiyini iddia edir. Digər dəstə isə Riddə qapsını bağlayaraq müəyyən şəxsi Təkfir etməkdən imtina edir." Şeyx doktor Əbdüləziz Əbdüllətifin - Allah onu müvəffəq etsin - sözü müxtəsər olaraq bitdi.